RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 90 (10110) 22 may 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## WUF13 COP29-dan sonra iştirakçı sayına görə ikinci mühüm qlobal tədbirdir



### Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də BMT Baş katibinin müavini Amina Mohammedi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının keçirilməsi ilə bağlı göstərdiyi dəstəyə görə BMT rəhbərliyinə minnətdarlığını bildirdi, tədbirin uğurlu olması üçün Azərbaycan Hökumətinin və BMT-nin Məskunlaşma Proqramının bir komanda kimi fəaliyyət göstərdiyini dedi.

WUF13-ün COP29-dan sonra iştirakçı sayına görə ölkəmizdə keçirilən ikinci mühüm qlobal tədbir olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev COP29 kimi Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının da uğurla təşkil edildiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə səmərəli əməkdaşlıq həyata keçirdiyini deyərək, ölkəmizin gələcəkdə də bu proqramla tərəfdaşlığını davam etdirəcəyini və Ümumdünya Şəhərsalma Forumunun digər sessiyalarının işində də fəal olacağını bildirdi.

2



# Ortaq strategiya və baxış bucağı

## Azərbaycan Cənubi Qafqazın əsas siyasi və iqtisadi güc mərkəzidir

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, söz sahibi olan dövlət kimi mövqeyini daha da gücləndirib. Ölkəmiz Cənubi Qafqaz regionunun da əsas siyasi və iqtisadi güc mərkəzinə çevrilib. Bakının balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasəti nəticəsində region ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq qurulub.

Bölgəmizdə siyasi sabitliyin, iqtisadi inkişafın və regional əməkdaşlığın təmin olunmasında Azərbaycan-Gürcüstan münasibətlərinin xüsusi yeri var. İkitərəfli münasibətlər uzun illərdir qarşılıqlı etimad, ortaq maraqlar və strateji tərəfdaşlıq prinsipləri əsasında inkişaf edir. Bu səbəbdən Bakı ilə Tbilisi arasında formalaşmış əməkdaşlıq modeli region üçün ən uğurlu nümunələrdən biri hesab olunur.

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında (WUF13) iştirak etmək məqsədilə Bakıya səfəri çərçivəsində Azərbaycan və Gürcüstan ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair sənədlərin imzalanması ilə strateji tərəfdaşlıqlarını bir daha təsdiqləyiblər. İmzalanma mərasimi mayın 18-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin iştirakı ilə baş tutub. Liderlər imzalanmış sənədlərin əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini, xüsusən Azərbaycan və Gürcüstanın bir çox ölkə üçün bağlantı habı kimi mühüm rolunu vurğulayıblar.

Görüşdə dövlətimizin başçısının bu ilin aprelində Gürcüstana dövlət səfəri məmnunluqla xatırlanıb, bu səfərin münasibətlərimizin möhkəmlənməsinə töhfəsi qeyd edilib.

8

## Prezident İlham Əliyevlə Fransa Prezidenti arasında telefon danışığı olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub.**

AZƏRTAC xəbər verir ki, bu barədə Prezidentin "X" sosial media hesabında paylaşım edilib. Paylaşımda deyilir: "Bu gün Prezident Emmanuel Makrondan (@EmmanuelMacron) telefon zəngi aldım. Telefon danışığı zamanı Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin gündəliyində duran məsələləri nəzərdən keçirdik və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi apardıq.

Biz həmçinin regional və qlobal prosesləri müzakirə etdik".

## WUF13 Azərbaycanın çoxşaxəli inkişaf modelinin uğurlu təqdimatıdır




Müasir dövrdə bir çox şəhər sürətli urbanizasiya prosesində öz tarixi simasını və mədəni ruhunu itirmək təhlükəsi ilə üz-üzə qalır. Bizim şəhərlərimiz isə inkişafla tarixi yaddaş arasında incə tarazlığı qoruyaraq, modernləşməni milli-mədəni irsin davamı ilə uzlaşdırmağı bacaran nadir şəhərlər sırasında yer alır.

Forumun açılışındakı çıxışında cənab Prezident İlham Əliyevin vurğuladığı kimi: "Əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz".

8

## *Şərq ruhlu müasirlik:* Mehriban xanım Əliyevanın şəhərsalma missiyası

Mehriban xanım Əliyevanın fəaliyyətində şəhərsalma və memarlıq məsələləri texniki və estetik sahə olmaqla yanaşı, həm də milli-mədəni irsin qorunması, insan amilinin ön plana çəkilməsi və müasir yaşayış standartlarının formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Birinci xanımın təşəbbüsü və birbaşa nəzarəti ilə həyata keçirilən çoxsaylı layihələrdə milli memarlıq ənənələri ilə müasir urbanistik yanaşmaların uzlaşdırılması xüsusilə nəzərə çarpır. Bakının simasının dəyişməsi məqsədilə həyata keçirilən layihələrdə Mehriban xanımın nəzər-diqqəti və dəst-xəti dərhal hiss olunur. Şəhərin tarixi hissələrinin bərpası, park və ictimai məkanların yenilənməsi, sosial obyektlərin müasir standartlara uyğun qurulması paytaxtımızı hər kəs üçün daha rahat və funksional şəhərə çevirib. Xüsusilə qədim memarlıq nümunələrinin qorunması ilə müasir infrastrukturun uyğunlaşdırılması balanslı inkişaf modelinin formalaşmasına imkan yaradır.

Mehriban xanım Azərbaycanın zəngin memarlıq irsinə milli kimliyimizin ayrılmaz hissəsi kimi yanaşır. Həqiqətən, tarixi abidələr, o cümlədən İçərişəhər kimi qədim şəhər mərkəzləri, məscidlər, karvansaralar, qalalar və digər memarlıq nümunələri xalqın keçmişini, mədəniyyətini, dövlətçilik tarixini yaşadan canlı yaddaşdır. İçərişəhər və Qız qalası Heydər Əliyev Fondunun xarici ekspertlərlə birgə layihələri sayəsində dağılmaqdan xilas edilmiş və bu məkan müasir turizm infrastrukturuna malik tarixi əraziyə çevrilmişdir. Belə memarlıq abidələrinin qorunması milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsi deməkdir. Mehriban xanım da bütün varlığı ilə bu irsə bağlı dövlət xadimi olaraq milli yaddaşı qoruyur, nəsillər arasında qırılmaz bağlılığı təmin edir.

7

## Şükürbəyli kəndinin sakinlərinin sayı 1000 nəfəri ötdü

Düşmən əsarətində olduğu müddətdə Şükürbəyli kəndində bir dənə də salamat bina qalmamışdı. Vaxtilə yaşayışın, kənd təsərrüfatının və sosial həyatın mərkəzlərindən biri olan kənd xarabalığa çevrilmişdi. Bu gün isə Şükürbəyli tamamilə yenidən qurulub. Müasir memarlıq prinsipləri əsasında salınan yaşayış məntəqəsi sakinlərin rahat və təhlükəsiz həyat sürmələri üçün bütün zəruri imkanlarla təmin edilir. Cəbrayıl rayonunun mərkəzindən 18 kilometr məsafədə yerləşən Şükürbəyli kəndi strateji və sosial baxımdan mühüm yaşayış məntəqələrindən hesab olunur. Burada həyata keçirilən tikinti və abadlıq işləri kəndin müasir standartlara uyğun şəkildə formalaşdırılmasına imkan yaradıb. İnşa edilən fərdi yaşayış evləri, sosial




obyektlər, kommunikasiya xətləri və yol infrastrukturu onu göstərir ki, Azərbaycan azad olunmuş ərazilərdə, sadəcə, əvvəlki vəziyyəti bərpa etmir, eyni zamanda yeni inkişaf modeli yaradır.

Şükürbəyli kəndində təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirilməsi dövlətin insan kapitalına verdiyi önəmin göstəricisidir. Burada inşa edilən 360 şagird yerlik məktəb binası kəndin gələcəyində mühüm rol oynayacaq. Müasir standartlara uyğun tikilmiş məktəbdə şagirdlərin keyfiyyətli təhsil almaları üçün bütün zəruri şərait yaradılıb. Tədris otaqları, laboratoriyalar, texnoloji avadanlıqlar və digər dərs ləvazimatları gələcək nəslin müasir biliklərə yiyələnməsinə xidmət edir.

12

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



**WUF13**



WORLD URBAN FORUM

# WUF13 COP29-dan sonra iştirakçı sayına görə ikinci mühüm qlobal tədbirdir

## Prezident İlham Əliyev BMT Baş katibinin müavinini qəbul edib

*Əvvəli 1-ci səh.*

Amina Mohammed BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Salamlara görə minnətdarlığını bildirən Prezident İlham Əliyev onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi.

WUF13-ün uğurla keçdiyini deyən Amina Mohammed bununla bağlı dövlətimizin başçısını təbrik etdi. O, bu tədbirdə dünyanın müxtəlif ölkələrindən çox sayda yüksəksəviyyəli qonağın iştirak etməsinin dərin təəssürat hissi yaratdığını bildirdi.

Amina Mohammed Bakıda müasir şəhərsalma qaydaları tətbiq olunmaqla tarixi irslə müasirliyin vəhdətinin təmin edildiyini məmnunluqla vurğuladı və bildirdi ki, bu, paytaxtımıza xüsusi gözəllik verir. Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə postmünaqişə şəraitində həyata keçirdiyi bərpa və quruculuq işlərinin postmünaqişə vəziyyətindəki regionlar üçün bir nümunə olduğu bildirildi və bu xüsusda ölkəmizin təcrübəsinin BMT çərçivəsində digər ölkələrlə bölüşməsinin faydalı olacağı vurğulandı.

Azərbaycanın "ASAN xidmət" modelinin BMT-nin dövlət xidmətləri mükafatına, həmçinin BMT-nin rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görüldüyü xatırlandı, "ASAN xidmət"in uğurlu təcrübə kimi Afrika və Asiyanın müxtəlif ölkələrində tətbiq olunduğu qeyd edildi.

Söhbət zamanı Azərbaycanla BMT arasında uzun illərdir uğurlu əməkdaşlığın həyata keçirildiyi və ölkəmizin bu təşkilatın fəal üzvü olduğu, onun proqram və tədbirlərinin icrasına mühüm töhfələr verdiyi vurğulandı. İndiyədək BMT-nin müxtəlif mövzulara aid beynəlxalq tədbirlərinin Azərbaycanda yüksək səviyyədə təşkil olunması məmnunluqla xatırlandı.



## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Müstəqillik Günü münasibətilə həyat yoldaşım və mən zati-alinizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gün xalqlarımız arasındakı davamlı dostluq barədə düşünmək üçün dəyərli fürsətdir. İkitərəfli əlaqələrimizin möhkəmliyini yüksək qiymətləndirir və qarşıdakı illərdə əməkdaşlığımızın daha da genişləndirilməsinə sadiq qaldığımı bildirirəm.

Dövrümüzün ortaq çağırışları, xüsusilə iqlim dəyişikliyi və ətraf mühitimizin qorunması ilə bağlı məsələlərlə üzləşdiyimiz bir vaxtda ölkələrimizin təsirli və uzunmüddətli həllər naminə birgə fəaliyyətini davam etdirəcəyinə ümidvaram.

Həyat yoldaşım və mən qarşıdakı dövrdə sülh, firavanlıq, rifah diləyi ilə Sizə və bütün azərbaycanlılara ən səmimi salamlarımızı göndəririk.

*Hörmətlə,*

***Əlahəzrət III ÇARLZ,***
***Böyük Britaniya və Şimali İrlandiyanın Kralı***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Zati-alinizə Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı bildirirəm.

Qardaş Azərbaycan Hökumətinə və xalqına daha da sürətli inkişaf və rifah arzulayıram.

*Zati-alinizə hörmət və ehtiramımı ifadə edirəm.*

***Məhəmməd bin Salman bin Əbdüləziz AL SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar günü Sizinlə birlikdə qeyd edərkən, Misir və Azərbaycan arasında mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Eyni zamanda dost xalqlarımızın mənafeyinə uyğun olaraq ortaq maraq doğuran müxtəlif sahələrdə əlaqələrimizin daha da dərinləşdirilməsi və genişləndirilməsi istiqamətində Sizinlə sıx əməkdaşlıq etməyə sadiq qaldığımı bir daha təsdiqləyirəm.

Hörmətli cənab Prezident, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Ən yüksək ehtiramla və dərin hörmətlə,*

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

İcazə verin, Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi çatdırım.

Çex Respublikası Azərbaycan Respublikası ilə münasibətlərini yüksək qiymətləndirir və əməkdaşlığı daha da möhkəmləndirməkdə maraqlı olduğunu bir daha təsdiqləyir. Ölkələrimiz arasında enerji, sənaye, ticarət, investisiya, elm və təhsil sahələrində davamlı inkişaf edən əlaqələri yüksək qiymətləndiririk və tərəfdaşlığımızın hər iki ölkə üçün faydalı olacağına əminik. Biz həmçinin Azərbaycanın daha geniş regionda sabitliyə və əməkdaşlığa töhfə verən tərəfdaş kimi mühüm rolunu yüksək dəyərləndiririk.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uğurlar, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Petr PAVEL,***
***Çex Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, xalqınıza tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Xorvatiya ilə Azərbaycanı çoxillik əməkdaşlıq və dostluq əlaqələri bağlayır. Əminəm ki, dost ölkələrimizin münasibətlərinin inkişafı və yeni istiqamətlərdə əməkdaşlığın həyata keçirilməsi ilə bağlı fəaliyyətimiz davam edəcəkdir. Hər iki ölkənin iqtisadi imkanları əməkdaşlığımızın daha da möhkəmlənməsi üçün stimul ola bilər.

*Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Zoran MİLANOVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Qırğız Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə dinamik inkişafını davam etdirir və dünya birliyində layiqli yer tutub.

Tam əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri qardaş xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və rifah, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə böyük məmnunluq hissi ilə ən səmimi təbriklərimi çatdırır, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza daha çox tərəqqi və firavanlıq arzulayıram.

Mərakeş Krallığı ilə Azərbaycan Respublikası arasındakı sıx münasibətlərə çox böyük dəyər verirəm.

Əməkdaşlığımız onu dərinləşdirmək və qardaş ölkələrimizin vətəndaşlarının istəklərinə uyğun olan xüsusi tərəfdaşlıq qurmaq əzmimizlə daha da möhkəmlənir.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi yetirir, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***FİLİP,***
***Belçikalıların Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Koreya Respublikasının Hökuməti və xalqı adından səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Koreya ilə Azərbaycanın sarsılmaz dostluğa və dərin etimada əsaslanan əməkdaşlıq münasibətlərinin davamlı şəkildə inkişafını olduqca önəmli hesab edirəm.

Ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənəcəyinə və müxtəlif sahələrdə sıx mübadilələr vasitəsilə əməkdaşlığımızın üfüqlərinin genişlənəcəyinə ümidvaram.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasına davamlı tərəqqi və firavanlıq, xalqınıza xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Li CEMYÖN,***
***Koreya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Malta xalqı adından səmimi təbriklərimi çatdırıram.

Diplomatik münasibətlərin qurulduğu vaxtdan etibarən Malta ilə Azərbaycan qarşılıqlı hörmətə və anlaşmaya əsaslanan dostluq əlaqələrini uğurla davam etdirirlər. Əminəm ki, ikitərəfli və çoxtərəfli əməkdaşlığımız gələcək illərdə daha da möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

*Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Miriam Spiteri DEBONO,***
***Malta Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri! Əziz Qardaşım!

Ölkənizin milli bayramı - 28 May Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyur, dost Azərbaycan xalqına yeni-yeni uğurlar və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud əməkdaşlıq münasibətlərinin dost xalqlarımızın mənafeləri naminə möhkəmlənməsi və inkişafı istiqamətində səyləri daha da artırmaq niyyətimizi xüsusi vurğulayıram.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Qardaşınız,*

***Məhəmməd uld Şeyx ƏL-QAZUANİ,***
***Mavritaniya İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Əlamətdar tarix - 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına öz adımdan və Cənubi Afrika Respublikasının hökuməti və xalqı adından ən səmimi təbriklərimizi, xoş arzularımızı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasındakı mükəmməl dostluq münasibətlərini daha da inkişaf etdirmək niyyətimizi bir daha bəyan edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Matamela Siril RAMAFOZA,***
***Cənubi Afrika Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Livan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, şəxsi rifah, müdrik rəhbərliyinizlə dost Azərbaycan Respublikasına və onun xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

Birlik və əməkdaşlıq dəyərlərini təcəssüm etdirən bu bayram qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi, xalqlarımızın, ölkələrimizin rifahı və mənafeyi naminə yeni nailiyyətlərin qazanılması məqsədilə birgə səylərimizin gücləndirilməsi baxımından bir fürsətdir.

*Zati-aliləri, ən yüksək ehtiramımı və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.*

***General Cozef AUN,***
***Livan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə, xalqınıza əmin-amanlıq və firavanlıq arzu edirəm.

Tailand ilə Azərbaycan arasında 30 ildən artıq davam edən, qarşılıqlı anlaşmaya və ortaq dəyərlərə əsaslanan dostluq münasibətləri əhəmiyyətli dərəcədə inkişaf etmişdir.

Qəti şəkildə əminəm ki, biz güclü iradəmizlə ölkələrimizin və xalqlarımızın mənafeyi naminə dostluq münasibətlərimizi möhkəmləndirmək, xüsusilə ticarət, investisiya və turizm sahələrində ikitərəfli əməkdaşlığımızın inkişafı istiqamətində fəaliyyətimizi davam etdirərək birgə səylərimizi daha da artıracağıq.

*Hörmətlə,*

***Maha Vajiralongkorn Phra VAJIRAKLAOCHAOYUHUA,***
***Tailandın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına şəxsən öz adımdan, Avstraliya Hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Avstraliya ehtiyac duyulan zamanlarda, o cümlədən 2025-ci ildə vətəndaşlarımızın İrandan təxliyə olunmasına göstərdiyi köməyə görə Azərbaycana dərin minnətdarlığını bildirir.

Əmin olduğumu bildirirəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcəkdir.

*Hörmətlə,*

***Samanta MOSTİN,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri!

28 May - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Hökumətinə və xalqına Trinidad və Tobaqo Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-aliləri, Sizə şəxsi rifah, Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Kristin Karla KANQALU,***
***Trinidad və Tobaqo Respublikasının Prezidenti,***
***Silahlı Qüvvələrin Ali Baş Komandanı***

❖ ❖ ❖

Zati-aliləri! Əziz Qardaşım!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə, eyni zamanda hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Bu tarixi gün Azərbaycan xalqının mətanətini, qətiyyətini və sarsılmaz ruhunu təcəssüm etdirir. Pakistan xalqı böyük ölkənizin tərəqqi, sabitlik və inkişaf yolunda mühüm irəliləyişini mənimlə birlikdə yüksək dəyərləndirir.

Zati-alinizlə və əziz Qardaşımız Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə ötən il Azərbaycanda iştirak etmək şərəfinə nail olduğum Müstəqillik Günü tədbirləri yaddaşımda hər zaman xoş xatirə kimi qalacaq.

Zati-aliləri, Pakistan müdrik rəhbərliyinizlə davamlı şəkildə güclənən və inkişaf edən Azərbaycanla qardaşlıq münasibətlərinə çox böyük əhəmiyyət verir. Qardaşlığımız regional sülhə dair ortaq baxışı, qarşılıqlı hörməti və tərəfdaşlığımızın münasibətlərin dərinliyinə uyğun şəkildə inkişafı ilə bağlı istəyimizi əks etdirir.

Əminəm ki, zati-alinizin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan daha böyük uğurlara və daha yüksək rifaha nail olacaq.

Sizi Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının uğurla keçirilməsi münasibətilə təbrik edirəm. Çox yaxın gələcəkdə Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək zati-alinizi Pakistana rəsmi səfərə dəvətimi bir daha təkrarlayıram. Sizi ölkəmizdə çox səmimi qarşılamaqdan məmnun olardıq.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı tərəqqi arzu edirəm.

*Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Möhtərəm Prezident, əziz Qardaşım!

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına daha da çox inkişaf və firavanlıq arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla Qardaşınız,*

***Salman bin Əbdüləziz AL SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurası adından milli bayramınız - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Bu bayram xalqın azadlıq iradəsini və müstəqil inkişaf əzmini təcəssüm etdirir. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlət suverenliyini, beynəlxalq arenada öz mövqeyini möhkəmləndirmək, iqtisadi inkişafını sürətləndirmək yolunda inamla irəliləməkdə davam edir. Əminik ki, uzaqgörənliyiniz və qətiyyətiniz sayəsində Azərbaycan Respublikası gələcəkdə daha da inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Dmitri KOBİTSKİ,***
*MDB Parlamentlərarası Assambleya Şurasının baş katibi,*
***Aydın CƏFƏROV,***
*MDB Parlamentlərarası Assambleya Şurası baş katibinin müavini - Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

28 May - Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi bildirməkdən böyük şərəf və məmnunluq duyuram.

Müstəqillik Günü Azərbaycan xalqının milli yaddaşının ən şanlı səhifələrindən biri kimi onun azadlıq və istiqlaliyyət arzularının gerçəkləşdiyi tarixi dönüş nöqtəsidir. Bu il Müstəqillik Günü ilə müqəddəs Qurban bayramının eyni vaxta təsadüf etməsi milli azadlıq ideallarının türk xalqlarının daim uca tutduğu xeyirxahlıq, mərhəmət, birlik və həmrəylik kimi ali mənəvi dəyərlərlə vəhdətini parlaq şəkildə təcəssüm etdirərək, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrinə və zəngin mənəvi irsinə sarsılmaz bağlılığını göstərir.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın fəal mövqeyi türk dövlətləri arasında əməkdaşlığın daha da dərinləşməsinə, qardaşlıq ruhunun möhkəmlənməsinə qiymətli və ardıcıl töhfələr verir. Azərbaycan dövlətinin Türk Dövlətləri Parlament Assambleyasının fəaliyyətinə göstərdiyi daimi diqqət və dəstəyin təşkilatımızın inkişafında, parlamentlərarası dialoq və əməkdaşlıq platforması kimi nüfuzunun artmasında xüsusi rolunu vurğulayaraq, zati-alinizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına və türk dünyasına davamlı sülh, rifah və tərəqqi arzulayıram.

*Yüksək hörmət və ehtiramla,*

***Ramil HƏSƏN,***
***Türk Dövlətləri Parlament Assambleyasının baş katibi***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Baş nazir Əli Əsədov Türkmənistana işgüzar səfər edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün mayın 21-də Türkmənistana işgüzar səfər edib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Aşqabad Beynəlxalq Aeroportunda Baş nazir Əli Əsədovu Türkmənistanın maliyyə və iqtisadiyyat naziri Mammetqulı Astanaqulov və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycan-Tacikistan Hökumətlərarası Komissiyasının 8-ci iclası olub

Mayın 21-də Bakıda Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasa Azərbaycan tərəfdən Baş nazirin müavini Samir Şərifov, Tacikistan tərəfdən isə Baş nazirin müavini Usmonali Usmonzoda rəhbərlik ediblər.

İclasda Samir Şərifov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev ilə Tacikistan Prezidenti Emoməli Rəhmon arasında yüksəksəviyyəli siyasi dialoq ikitərəfli münasibətlərin inkişafına mühüm təkan verir. Xüsusilə, 2024-cü ildə Tacikistan Prezidentinin Azərbaycana dövlət səfəri çərçivəsində imzalanmış Strateji tərəfdaşlıq haqqında Bəyannamə münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Azərbaycanın Mərkəzi Asiya dövlətləri, o cümlədən Tacikistan ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyi qeyd edilib. Bildirilib ki, Azərbaycanın 2025-ci ilin noyabr ayında Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına tamhüquqlu iştirakçı kimi qoşulması regionlararası əlaqələrin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

2025-ci ildə Azərbaycan ilə Tacikistan arasında ticarət dövriyyəsinin 84 faiz, strateji əhəmiyyətli tranzit daşımalarının isə 50 faiz artması ilə müşayiət olunan müsbət dinamika təqdir olunmaqla yanaşı, ölkələrimizin iqtisadi əməkdaşlığının genişləndirilməsi üçün böyük potensialın mövcudluğu vurğulanıb.

Bu baxımdan Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əlaqələndirilməsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinin dövlət başçılarının tapşırıqlarının icrası baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Bildirilib ki, ötən ilin noyabr ayında Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən Tacikistan üzrə ilk ticarət nümayəndəsinin təyin edilməsi ticarət-iqtisadi əlaqələrin genişlənməsinə əlavə impuls verəcək.

İclasda sənaye, investisiya, kənd təsərrüfatı, energetika, nəqliyyat və logistika, tranzit, turizm, təhsil və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivlərinə xüsusi diqqət yetirilib.

Tacikistan şirkətləri Azərbaycanda yaradılmış əlverişli biznes mühiti, sənaye parkları, o cümlədən Ələt Azad İqtisadi Zonası və müasir infrastruktur imkanlarından daha fəal istifadə üçün dəvət edilib.

Samir Şərifov qeyd edib ki, Tacikistanın Orta dəhliz layihələrinə fəal qoşulması regional əməkdaşlığın və tranzit potensialının genişlənməsinə əlavə imkanlar yaradacaq.

Tacikistan Baş nazirinin müavini Usmonali Usmonzoda iki ölkə arasında ticarət əlaqələrinin mövcud potensialdan çox yüksək olduğunu vurğulayıb və bundan istifadə etmək üçün hər iki tərəfdə yüksək səviyyədə siyasi iradəni qeyd edib. U.Usmonzoda azərbaycanlı iş adamlarının Tacikistan iqtisadiyyatına sərmayə yatırması üçün hər cür şəraitin olduğunu diqqətə çatdırıb, Azərbaycanın rəsmi nümayəndələrini əlaqələri daha da möhkəmləndirmək, koordinasiyanın çevikliyini təmin etmək, Birgə Komissiyanın növbəti iclasını keçirmək üçün Düşənbəyə səfərə dəvət edib.

İclasın yekununda Azərbaycan və Tacikistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş bir sıra mühüm sənədlər imzalanıb. Bunlara AZPROMO ilə Tacikistanın Ticarət və Sənaye Palatası arasında İşgüzar Şuranın yaradılması haqqında Anlaşma Memorandumu, təhsil sahəsində illik kvotaların qarşılıqlı ayrılmasına dair Saziş və Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclasının Protokolu daxildir.

Qeyd olunub ki, bu sənədlər ikitərəfli ticarət-iqtisadi əlaqələrin institusional əsaslarının möhkəmləndirilməsinə və praktiki əməkdaşlığın genişlənməsinə xidmət edəcək.

Mayın 22-də Bakıda Azərbaycan və Tacikistan iş adamlarının iştirakı ilə keçiriləcək biznes-forumun bu mövzuların daha ətraflı müzakirə edilməsi, yeni imkanların aşkarlanması üçün əlverişli fürsət yaradacağına əminlik ifadə olunub.

# Beynəlxalq Miqrasiya Təşkilatının baş direktorunun müavini "Böyük qayıdış" proqramını yüksək qiymətləndirib

Mayın 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak məqsədilə ölkəmizdə səfərdə olan Beynəlxalq Miqrasiya Təşkilatının baş direktorunun müavini Uqoçi Daniels ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan və Beynəlxalq Miqrasiya Təşkilatı arasında ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti, gələcək birgə fəaliyyət perspektivləri və miqrasiya proseslərinin idarə edilməsi sahəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirə aparılıb.

Tərəflər ölkəmizin BMT-nin ixtisaslaşmış qurumları ilə, xüsusən də Beynəlxalq Miqrasiya Təşkilatı ilə qurduğu uzunmüddətli münasibətlərin dinamikasını müsbət qiymətləndirib. Miqrasiya sahəsində idarəetmə mexanizmlərinin müasirləşdirilməsi istiqamətində reallaşdırılan müştərək təşəbbüslərin əhəmiyyəti vurğulanıb. Görüş zamanı müqabil tərəfə işğaldan azad edilmiş ərazilərdə icra olunan irimiqyaslı infrastruktur layihələri və regionun iqtisadi reabilitasiyası barədə ətraflı məlumat verilib.

Hökumətin əsas strateji prioritetlərindən biri olan keçmiş məcburi köçkünlərin doğma torpaqlarına dayanıqlı və mərhələli şəkildə qayıdışının uğurla həyata keçirildiyi vurğulanıb. Uqoçi Daniels Azərbaycanda miqrasiya sahəsində həyata keçirilən islahatları, xüsusilə məcburi köçkünlərin geri qayıdışı istiqamətində görülən işləri, "Böyük qayıdış" proqramını yüksək qiymətləndirib. Təmsil etdiyi qurumun ölkəmizlə miqrasiya sahəsində əməkdaşlığı davam etdirməyə və müvafiq layihələrə zəruri dəstək verməyə hazır olduğunu bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər, habelə regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova Qırğız Respublikası Joqorku Keneşinin Sədri ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Qırğız Respublikası Joqorku Keneşinin Sədri Marlen Mamataliyev ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Marlen Mamataliyevi bu vəzifəyə seçilməsi münasibətilə təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında çoxəsrlik tarixi köklərə malik dostluq və qardaşlıq əlaqələrinin müasir dövrdə də qarşılıqlı surətdə faydalı tərəfdaşlıq və dostluq ruhunda uğurlu inkişafından məmnunluq ifadə olunub. Tərəflər Azərbaycan və Qırğızıstan dövlət başçılarının qarşılıqlı səfərlərinin, yüksək səviyyədə görüşlərin dinamikasının və səmərəliliyinin ikitərəfli münasibətlərin möhkəmlənməsində və dərinləşməsində mühüm rolunu qeyd ediblər.

Söhbət zamanı Azərbaycan və Qırğız Respublikası arasında yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də davam etdirildiyi vurğulanaraq, qeyd olunub ki, ölkələrimiz arasında münasibətlərin inkişafında qanunverici orqanların da özünəməxsus rolu var. Parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda sıx əməkdaşlıq edirlər. O cümlədən, beynəlxalq parlament təşkilatlarında, həmçinin MDB-nin Parlamentlərarası Assambleyasında, Türk Dövlətlərinin Parlament Assambleyasında, İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında, Asiya Parlament Assambleyasında və digər qurumlarda fəal əməkdaşlıq mövcuddur. Görüşdə parlament sədrləri və deputatlar səviyyəsində qarşılıqlı səfərlərin və təmasların qanunverici orqanlarımız arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verdiyi qeyd olunub.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın Şura iclasında çıxış edib

**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB Parlamentlərarası Assambleyasının (MDB PA-nın) şura iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova tədbirdə iştirak edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova iclasda çıxış edərək, müzakirə olunan mövzularla bağlı fikirlərini bildirib. O, şura iclası gündəliyinin 3-cü bəndi ilə bağlı danışaraq deyib ki, assambleyanın fəaliyyətinin əsas istiqamətlərindən biri MDB iştirakçı dövlətlərində keçirilən seçkilər və referendumlarla bağlı monitorinq fəaliyyətinin həyata keçirilməsidir. Milli Məclisin Sədri qeyd edib ki, seçkilər hər bir ölkənin həyatında onun gələcək inkişafını müəyyən edən ən vacib hadisələrdən biridir. İstənilən seçkidə obyektiv müşahidə missiyası seçkilərin şəffaflıq və demokratiklik dərəcəsinin qiymətləndirilməsində çox mühüm rol oynayır. Sahibə Qafarova vurğulayıb ki, assambleyanın müşahidə missiyalarının ölkələrimizdə keçirilən seçkilərdə iştirakı, sadəcə, monitorinq prosesi deyil, eyni zamanda, həmrəyliyin və qarşılıqlı dəstəyin təzahürüdür.

O, Parlamentlərarası Assambleyanın beynəlxalq müşahidəçilərinin Qırğız Respublikasının Joqorku Keneşinə növbədənkənar seçkilərin, həmçinin Qazaxıstan Respublikasının yeni Konstitusiyasının qəbulu üzrə referendumun monitorinqinin nəticələri ilə bağlı da fikirlərini diqqətə çatdırıb. Bildirilib ki, Milli Məclisin deputatları hər iki müşahidə missiyasında fəal iştirak ediblər. Sahibə Qafarova məmnunluqla qeyd edib ki, qardaş Qazaxıstanda keçirilən referendumun monitorinqində MDB Parlamentlərarası Assambleyasının müşahidəçi qrupunun koordinatoru vəzifəsini Milli Məclisin Sədr müavini Ziyafət Əsgərov yerinə yetirib.

İclasda bir sıra təşkilati və gündəlikdəki məsələlər müzakirə olunub və yekunda müvafiq qərarlar qəbul edilib.

*"Azərbaycan"*

# Azərbaycan ilə BMT arasında dayanıqlı inkişaf, şəhərsalma, iqlim gündəliyi üzrə əməkdaşlığın vacibliyi qeyd edilib

Mayın 21-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini Amina Mohammedin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə BMT arasında əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub. Tərəflər çoxtərəfli əməkdaşlıq, Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, iqlim fəaliyyəti, eləcə də postmünaqişə dövründə bərpa və yenidənqurma istiqamətində həyata keçirilən təşəbbüslər ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov Azərbaycanın beynəlxalq sülh, təhlükəsizlik və dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələri qeyd edib, ölkəmizin regional əməkdaşlıq və bağlantı layihələrinin təşviqində oynadığı rolu vurğulayıb.

Bununla yanaşı, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli şəkildə geri dönüşünün təmin olunması istiqamətində görülən tədbirlər barədə məlumat verilib. Tərəflər həmçinin ölkəmizin enerji təhlükəsizliyi və regional bağlantılar sahəsində aparıcı rolu, ölkəmizin Mərkəzi Asiya ilə strateji əlaqələri barədə müzakirə aparıblar.

BMT Baş katibinin müavini Amina Mohammed Azərbaycan ilə BMT arasında tərəfdaşlığın əhəmiyyətini vurğulayaraq, dayanıqlı inkişaf, şəhərsalma, iqlim gündəliyi və humanitar məsələlər üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Leyla Əliyeva Esvatini Kralı III Msvati ilə görüşüb

**Mayın 21-də Leyla Əliyeva Esvatini Kralı Əlahəzrət III Msvati ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Esvatini Şahzadəsi Lindani Dlamini və bu ölkənin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri, senator Folile Şakantu da iştirak ediblər.

Ölkəmizə səfəri çərçivəsində Azərbaycan Prezidenti ilə görüşünü məmnunluqla xatırlayan Esvatini Kralı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) yüksək səviyyədə təşkil edildiyini deyərək bununla bağlı təbriklərini çatdırdı.

Leyla Əliyeva təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi, öz növbəsində WUF13-ün dünyanın müxtəlif ölkələri arasında şəhərsalma sahəsində təcrübə mübadiləsi aparmaq üçün uğurlu platforma olduğunu dedi. Görüşdə Azərbaycan-Esvatini ikitərəfli əlaqələrinin inkişafı üçün yaxşı imkanların olduğu bildirildi, Heydər Əliyev Fondu ilə bu ölkə arasında mümkün əməkdaşlığın perspektivləri müzakirə olundu.

# Leyla Əliyeva və Arzu Əliyeva "Urban Expo" sərgisi ilə tanış olublar









Mayın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində keçirilən "Urban Expo" sərgisinə baxıblar.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və Arzu Əliyeva Azərbaycanın, o cümlədən müxtəlif ölkələrin milli pavilyonlarında və stendlərində təqdim edilən layihələr və innovativ şəhərsalma həlləri ilə tanış olublar. Onlar ziyarətçilər və iştirakçılar ilə görüşərək xatirə şəkilləri çəkdiriblər.

# Bakıda 7-ci Azərbaycan-Avropa İttifaqı Təhlükəsizlik dialoqu keçirilib

Mayın 20-də Bakıda Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında Təhlükəsizlik Dialoqunun 7-ci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclas iştirakçıları Azərbaycan-Aİ münasibətlərinin hazırkı vəziyyəti, qarşılıqlı maraq doğuran xarici və təhlükəsizlik siyasəti məsələləri ilə bağlı konstruktiv fikir mübadiləsi aparıblar. Onlar Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın və Avropa İttifaqının ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfərləri və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşləri də daxil olmaqla, son zamanlar yüksəksəviyyəli təmasların intensivləşməsini alqışlayıblar, ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsində ortaq maraqlarını bir daha təsdiqləyiblər.



Tərəflər yeni Tərəfdaşlıq Prioritetləri və yeni ikitərəfli saziş üzrə davam edən müzakirələrin vacibliyini vurğulayıblar. Həmçinin mövcud Azərbaycan-Aİ Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində müntəzəm dialoqun davam etdirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

İştirakçılar geosiyasi proseslər və xarici siyasət, bağlantı, enerji təhlükəsizliyi və Orta dəhliz də daxil olmaqla, regional və beynəlxalq prosesləri müzakirə ediblər. Aİ Azərbaycanın regional bağlantı və enerji şaxələndirilməsi baxımından mühüm tərəfdaş kimi rolunu qeyd edib, davamlı, iqtisadi cəhətdən səmərəli və qaydalara əsaslanan əməkdaşlığın vacibliyini vurğulayıblar.

Aİ Azərbaycanda aparılan humanitar minatəmizləmə səylərinə dəstəyini bir daha təsdiqləyib və bu sahədə əməkdaşlığın davam etdirilməsini alqışlayıb. Səfər çərçivəsində mayın 19-da Aİ nümayəndə heyəti Ağdam rayonu da daxil olmaqla, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına baş çəkib, Azərbaycan tərəfindən həyata keçirilən minatəmizləmə fəaliyyəti ilə tanış olub.

İştirakçılar həmçinin Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı fikir mübadiləsi aparıblar. Aİ Azərbaycanla Ermənistan arasında son aylarda əldə olunmuş irəliləyişi, o cümlədən etimad quruculuğu tədbirlərini və təmasların intensivləşməsini alqışlayıb, davamlı sülhün dəstəklənməsi üçün dialoqun və praktiki əməkdaşlığın davam etdirilməsinə çağırış edib.

Tərəflər formatın genişləndirilərək onun Azərbaycan-Aİ Siyasi və Təhlükəsizlik Dialoqu adlandırılması barədə razılığa gəliblər ki, bu, ikitərəfli münasibətlərin daha geniş sahələri əhatə etdiyinin və strateji əhəmiyyətinin göstəricisidir.

İclasa Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev və Avropa Xarici Fəaliyyət Xidmətinin Siyasi Məsələlər üzrə baş katibinin müavini Olof Skuq həmsədrlik ediblər.

# Heydər Əliyev Mərkəzində perulu rəssamın fərdi sərgisinin açılışı olub









**Mayın 21-də Heydər Əliyev Mərkəzində perulu rəssam Ronald Kompanokanın fərdi sərgisinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində Leyla Əliyeva və Alena Əliyeva, mədəniyyət naziri Adil Kərimli, tanınmış incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.

"Yuxular teatrı" ("The Theater of Dreams") adlı sərgidə müəllifin bir sıra əsərləri ilk dəfə ictimaiyyətə təqdim olunub.

Açılış mərasimindən əvvəl jurnalistlərə açıqlama verən Ronald Kompanoka bildirib ki, bu hadisə onun üçün böyük əhəmiyyət daşıyır və sərginin Avropanın mühüm mədəniyyət mərkəzlərindən birində keçirilməsi xüsusi önəm kəsb edir. Rəssam qeyd edib ki, layihəni digər sərgilərdən fərqləndirən əsas cəhət onun yalnız ənənəvi təqdimat formatı ilə məhdudlaşmaması, müxtəlif mədəni yanaşmaları və yaradıcı baxışları bir araya gətirməsidir.

O vurğulayıb ki, sərgidə nümayiş olunan əsərlərin bir qismi Azərbaycan mədəniyyətindən ilhamlanaraq hazırlanıb. Eyni zamanda bəzi işlərdə xalça elementləri, digər əsərlərdə isə Azərbaycan motivləri və ölkəmizin adı əks olunub. Ronald Kompanoka əlavə edib ki, yaradıcılığında həm fantaziya, həm də sehrli sürrealizm elementləri yer alır. Bununla belə, o, əsərlərini daha çox realist və mistik üslubun sintezi kimi dəyərləndirir.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, rəssamla artıq bir neçə ildir sərginin Azərbaycanda keçirilməsi ilə bağlı müzakirələr aparılırdı və nəhayət bu layihəni reallaşdırmaq mümkün olub. O, bu müddət ərzində fəal yaradıcılıq fəaliyyəti göstərdiyinə və sərginin təşkilinə verdiyi dəstəyə görə rəssama təşəkkür edib. Anar Ələkbərov həmçinin bu





cür layihələrin həyata keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Çıxış edən Ronald Kompanoka isə qeyd edib ki, sərgidə təqdim olunan iriölçülü əsərlər üzərində son bir il ərzində intensiv çalışıb. Onun sözlərinə görə, bu əsərlər detallara olan xüsusi həssaslığının, görünməyəni görünənə çevirmək istəyinin və daxili dünyasının bədii ifadəsinin nəticəsidir.

Qeyd olunub ki, ekspozisiyada nümayiş olunan əsərlərin ana xəttini zaman, səyahət və yuxular mövzusu təşkil edir. Sərgidə xatirələri qoruyan saatlar, buludlar yaradan gəmilər, ay işığında hərəkət edən karvanlar və eyni mənzilə doğru can atan obrazlar xüsusi yer tutur.

Tədbir çərçivəsində Kompanokanın əsərlərindəki obrazları səciyyələndirən müxtəlif personajların iştirakı ilə bədii proqram da təqdim olunub. Daha sonra qonaqlar "Yuxular teatrı" sərgisi ilə tanış olublar.

Xəyali aləmə aparan sərginin əsas personajlarını təlxəklər, musiqiçilər, sehrbazlar, səyyahlar və fantastik varlıqlar təşkil edirlər. Bu obrazlar tamaşaçını rəssamın daxili dünyasına doğru qeyri-adi səyahətə aparır.

Ronald Kompanokanın əsərləri sehrli sürrealizm fəlsəfəsi əsasında yaradılıb və ziyarətçiləri reallıqla təxəyyülün incə tarazlıqda qovuşduğu ecazkar kainatla tanış edir. Bu bədii yanaşmada İeronim Bosx, Salvador Dali və Rene Maqrit kimi dünyaşöhrətli sənətkarların yaradıcılığına istinad olunur.

Tamaşaçıları ilə özünəməxsus bədii dildə ünsiyyət quran Ronald Kompanokanın əsərləri bu günədək Avropa, ABŞ və Mərkəzi Amerikanın müxtəlif ölkələrində nümayiş etdirilib.

Sərgi 2027-ci il martın 1-dək davam edəcək.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

# WUF13 çərçivəsində "Yeni inkişaf üçün tranzityönümlü planlaşdırma" mövzusunda sessiya keçirilib

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Yeni inkişaf üçün tranzityönümlü planlaşdırma" mövzusunda sessiya keçirilib.



AZƏRTAC xəbər verir ki, sessiyada sürətli urbanizasiya fonunda torpaq resurslarının dayanıqlı idarə olunması, mənzil və infrastruktur çatışmazlığı, eləcə də şəhər-kənd əlaqələrinin gücləndirilməsi məsələləri müzakirə edilib.

Sessiyada çıxış edən Qazaxıstanda yerləşən "STEP City" təşəbbüsünün təsisçisi və idarəedici partnyoru Alina Bisembaeva bildirib ki, TOD yanaşması davamlı mobillik sisteminin layihələndirilməsi şəhər nəqliyyatına əsaslanan rayonlaşdırma və infrastruktur dizaynı ilə həyata keçirilir, beləliklə şəhər nəqliyyatı daha səmərəli, əlçatan və hər kəs üçün rahat olur.

O qeyd edib ki, Yaponiyada TOD-un dünyadakı ən sistemli və mükəmməl versiyası tətbiq olunur.

"Ölkənin Tokyo, Hankyu və digər iri özəl dəmir yolu şirkətləri tarixi inkişaf prosesində yalnız sərnişin daşımaları ilə məşğul olmamış, eyni zamanda öz dəmir yolu xətləri boyunca yerləşən torpaq sahələrinin əsas inkişaf etdiriciləri kimi çıxış ediblər. Bu inteqrasiya nəqliyyat sisteminin maliyyələşdirilməsi ilə yanaşı, əmlak bazarının da paralel şəkildə inkişafını təmin edib", - deyə o əlavə edib.

Şəhər strategiyası üzrə ekspert Artemiy Yarçevskiy diqqətə çatdırıb ki, urbanizasiya və nəqliyyat planlaşdırılması yalnız böyük inkişaf konsepsiyaları ilə məhdudlaşmır, eyni zamanda gündəlik şəhər mobilliyi məsələlərini də əhatə edir.

O, yeni yaşayış ərazilərində ictimai nəqliyyat marşrutlarının düzgün qurulmasının, yol infrastrukturunun planlaşdırılmasının və nəqliyyat-mübadilə qovşaqlarına əlçatanlığın vacibliyini vurğulayıb.

Sessiyada, eyni zamanda şəhər və kənd iqtisadiyyatlarının inteqrasiyası xüsusi diqqət mərkəzində olub. Bu çərçivədə istehsal, logistika, bazar və xidmət zəncirlərinin birləşdirilməsi vasitəsilə iş yerlərinin yaradılması, miqrasiyanın azaldılması və regionlararası balanslı inkişafın təmin edilməsi məsələləri gündəmə gətirilib.

# "Qlobal Cənubun sürətlə urbanizasiya olunan ölkələri üçün innovativ tərəfdaşlıqlar və həllər" mövzusunda panel yekunlaşıb

Bakıda Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Cənub-Cənub və Üçbucaqlı Əməkdaşlıq vasitəsilə Təhlükəsiz və Dayanıqlı Şəhərlər və İcmaların Qurulması üzrə Regionlararası Dialoq: Qlobal Cənubun sürətlə urbanizasiya olunan ölkələri üçün innovativ tərəfdaşlıqlar və həllər" mövzusunda tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Regional proqram şöbəsinin direktoru Patrick Canagasinghamın moderatorluğu ilə keçirilən tədbirdə müxtəlif ölkələrin nümayəndələri urbanizasiya, davamlı inkişaf və beynəlxalq tərəfdaşlıq məsələlərini müzakirə ediblər.

"United Nations Office for South-South Cooperation" təşkilatının direktoru Dima Al-Khatib qeyd edib ki, təxminən 3 milyard insan qeyri-qənaətbəxş mənzil şəraitində yaşayır, bir milyarddan çox insan isə gecəqondularda məskunlaşır. O, 300 milyondan çox insanın ümumiyyətlə sığınacaq evinin olmadığına diqqət çəkib.

Kolumbiyanın Azərbaycandakı səfiri Nelsi Rakel Munar Xaramiyon WUF13-ün fikir mübadiləsi aparmaq üçün ideal platforma olduğunu bildirib. Onun sözlərinə görə, bu məkan ölkələrimiz üçün fundamental əhəmiyyət kəsb edir.

Qananın işlər, mənzil və su resursları naziri Kenneth Gilbert Adjei Qlobal Cənub ölkələri arasında həmrəylik və əməkdaşlığın gücləndirilməsində göstərdiyi dəstəyə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. Nazir qeyd edib ki, Qlobal Cənubda urbanizasiya misli görünməmiş sürətlə gedir, çünki şəhərlər getdikcə iqtisadi transformasiya, innovasiya və imkanların mərkəzinə çevrilir.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Məhəmmədəli Xudaverdiyev qeyd edib ki, Cənub-Cənub və Üçtərəfli Əməkdaşlıq bu gün xüsusi əhəmiyyət kəsb edir: "Cənub-Cənub əməkdaşlığının əsas üstünlüyü oxşar çağırışlar və inkişaf prioritetləri ilə üzləşən ölkələr arasında praktik təcrübə və uyğunlaşdırıla bilən həllərin mübadiləsindədir. Qlobal Cənub yalnız problemlərə deyil, həm də mühüm innovasiya və təcrübəyə sahibdir. Biz strukturlaşdırılmış Cənub-Cənub bilik mübadiləsini gücləndirməyə və institusional təcrübəmizi tərəfdaş ölkələrlə bölüşməyə sadiqik".

Tədbir müzakirələrlə davam edib.

# "BMT-nin 2026-cı il Su Konfransı Şəhər mənzillərinin yol xəritəsi" adlı sessiya baş tutub

Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "BMT-nin 2026-cı il Su Konfransı Şəhər mənzillərinin yol xəritəsi" adlı tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Bakıdan Əbu-Dabiyə qədər mənzil və şəhər xidmətləri üzrə inteqrasiya olunmuş yol xəritəsi müzakirə edilib. Sessiyada su təchizatı, sanitariya, mənzil, torpaq idarəçiliyi və qeyri-formal yaşayış məntəqələrinin transformasiyası dayanıqlı şəhər inkişafının əsas istiqamətləri kimi diqqət mərkəzində olub.

Tədbirin moderatoru Milli Su və Kanalizasiya Korporasiyasının Biznes və Elmi Xidmətlər üzrə baş direktoru Rose Kaggva olub. Açılış nitqi ilə BMT Baş katibinin müavini və UN-Habitatın icraçı direktoru BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax çıxış edərək bildirib ki, mənzil urbanizasiyanın əsas hərəkətverici qüvvələrindən biridir. Buna görə də mənzil siyasəti, şəhər planlaşdırılması və su təminatı birgə və koordinasiyalı şəkildə həyata keçirilməlidir.

"Bu problemlərin əksəriyyəti birbaşa su sektoru ilə və ya ənənəvi olaraq su sahəsində aparılan müzakirələrlə bağlı olmasa da, onların su təhlükəsizliyinə ciddi təsiri var. Burada, xüsusilə şəhərsalma və torpaq istifadəsinin planlaşdırılması mühüm rol oynayır. Torpaqdan istifadənin ekoloji və sosial baxımdan dayanıqlı şəkildə təşkili həm insanların yaşayış şəraitinin yaxşılaşdırılmasına, həm də su resurslarının daha səmərəli idarə olunmasına töhfə verə bilər", - deyə o diqqətə çatdırıb.

Asiya İnkişaf Bankının (AİB) Su təchizatı və şəhər inkişafı şöbəsinin rəhbəri Norio Saito qeyd edib ki, Asiya və Sakit Okean regionunda fəaliyyət göstərdikləri bir çox ölkədə əsas problemlərdən biri maliyyə dayanıqlığıdır.

O bildirib ki, subsidiyalar çox vaxt real xərcləri qarşılaya bilmir və nəticədə insanlar davamlı şəkildə subsidiyalardan asılı vəziyyətə düşürlər.

"Daha çox su istifadə edənlər adətən maddi imkanları daha geniş olan təbəqələrdir. Buna görə də su istifadəsi, subsidiyaların bölüşdürülməsi məsələlərinə daha diqqətli və ədalətli yanaşmaq vacibdir", - deyə o diqqətə çatdırıb.

Çıxış edən Gecəqondu Sakinlərinin Beynəlxalq Təşkilatının xüsusi nümayəndəsi Rose Molokoane qeyd edib ki, bir çox icmada insanlar hələ də təhlükəsiz içməli suya çıxışdan məhrumdurlar və çirklənmiş su mənbələrindən istifadə etməyə məcbur qalırlar.

O qeyd edib ki, beynəlxalq səviyyədə su təhlükəsizliyi ilə bağlı müxtəlif çağırışlar səslənsə də, bəzi icmalar gündəlik həyatda ən əsas su ehtiyaclarını belə qarşılaya bilmirlər.

Sessiya müzakirələrlə davam edib.

# WUF13 çərçivəsində "Bakı Baş Planı-2040"ın dayanıqlı şəhər inkişafı istiqamətlərindən danışılıb

Bakıda BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "2040-cı il Bakının Baş Planı - Yeni İnkişaf Dövrü" mövzusunda tədbir keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə 2040-cı ilədək paytaxtın inkişafını müəyyən edən "Bakı Baş Planı"nın əsas prioritetləri, şəhərsalma yanaşmaları, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və dayanıqlı urbanizasiya hədəfləri geniş müzakirə olunub.

Müzakirələrdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Mənzil İnşaatı Dövlət Agentliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə yanaşı, beynəlxalq tərəfdaşlar və məsləhətçi şirkətlərin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəisi Read Qasımov bildirib ki, "Bakı Baş Planı 2040" paytaxtın daha yaşıl, inklüziv, dayanıqlı və qlobal rəqabətqabiliyyətli şəhərə çevrilməsini hədəfləyir. Onun sözlərinə görə, baş planın əsas prioriteti sakinlərin həyat keyfiyyətinin yüksəldilməsidir. Bu çərçivədə parkların genişləndirilməsi, sahilyanı ərazilərin abadlaşdırılması, şəhər bulvarının inkişafı və məhəllə infrastrukturunun yenilənməsi daha yaşanıla bilən şəhər mühitinin formalaşdırılmasına xidmət edir.

Read Qasımov qeyd edib ki, ekoloji dayanıqlılıq, enerji səmərəliliyi və bərpaolunan enerji həllərinin təşviqi baş planın əsas istiqamətlərindəndir. Bu sahədə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində milli yaşıl tikinti yol xəritəsinin hazırlanması istiqamətində işlər aparılır.

Tədbirdə çıxış edən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin İnstitusional inkişaf məsələləri üzrə müşaviri Fariz Əzizov bildirib ki, Bakı hazırda çoxmərkəzli şəhər modelinə keçid edir və şəhər mobilliyi inteqrasiya olunmuş sistemə çevrilir. Onun sözlərinə görə, şəhərin inkişafı artıq yalnız iqtisadi göstəricilərlə deyil, əlçatanlıq və səmərəli mobilliklə ölçülür. Fariz Əzizov qeyd edib ki, Həsən Əliyev küçəsindən "Koroğlu" metro stansiyasına qədər uzanan yeni yol layihəsinin təxminən 50 faizi icra olunub və bu layihə şəhərin nəqliyyat yükünün azaldılmasına xidmət edəcək.

Daha sonra çıxış edən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi Bakı regional idarəsinin rəisi Tərlan Səfərov Bakı nəqliyyat sisteminin vahid mobillik ekosisteminə çevrildiyini bildirib. O qeyd edib ki, metro şəbəkəsinin genişləndirilməsi, avtobus zolaqlarının artırılması və yeni nəqliyyat qovşaqlarının yaradılması paralel şəkildə davam etdirilir.

Tərlan Səfərov bildirib ki, hazırda şəhərdə 368 ekoloji təmiz avtobus fəaliyyət göstərir, 140 kilometr avtobus zolağı salınıb və sərnişindaşıma həcmi davamlı olaraq artır. O qeyd edib ki, əsas məqsəd magistral yollar, metro, dəmir yolu və digər nəqliyyat növlərini ayrı-ayrı sistemlər kimi deyil, vahid rəqəmsal və fiziki ekosistem şəklində inteqrasiya etməkdir. Bu yanaşma səyahət vaxtının azaldılmasına və şəhər üzrə əlçatanlığın artırılmasına xidmət edir. Aktiv mobillik sahəsində görülən işlərdən də bəhs olunub. Bildirilib ki, paytaxtda 65 kilometr velosiped yolu salınıb, 1000-dən çox velosiped parklanma məntəqəsi quraşdırılıb.

Həmçinin mikromobillik həllərinin, xüsusilə elektrik skuterlərinin qısaməsafəli səfərlərdə istifadəsinin artdığı diqqətə çatdırılıb. Qeyd olunub ki, bu xidmətlər üzrə 4 milyondan çox səfər həyata keçirilib və 400 mindən artıq istifadəçi sistemdən yararlanır.

Sonda vurğulanıb ki, əldə olunan nəticələr Bakı sakinlərinin dayanıqlı və alternativ nəqliyyat həllərinə marağının artdığını nümayiş etdirir.

# UN-Habitat: Dayanıqlı və aşağıkarbonlu şəhər inkişafında mənzil və iqlim siyasətlərinin inteqrasiyası vacibdir

"Milli iqlim planlarında şəhərlərin rolu əhəmiyyətli dərəcədə artır və şəhərəsaslı yanaşmalar iqlim siyasətinin əsas istiqamətlərindən birinə çevrilir".



AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda keçirilən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan "Milli iqlim planlarının şəhər məzmunu ilə bağlı BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) hesabatı" mövzusunda keçirilən tədbirdə bildirilib.

Tədbirdə qeyd olunub ki, UN-Habitatın yeni hesabatına əsasən, təqdim olunan yenilənmiş Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDC 3.0) 80 faizində şəhərlərlə bağlı tədbirlər əksini tapıb. Halbuki əvvəlki mərhələdə bu göstərici 49 faiz təşkil edirdi. Hesabat çərçivəsində 142 ölkənin milli iqlim planı təhlil olunub.

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Koordinatoru Lea Ranalder bildirib ki, son illərdə şəhərlərin iqlim siyasətində rolu sürətlə güclənib və artıq əksər milli iqlim planlarında şəhər inkişafı məsələləri yer alır. Onun sözlərinə görə, milli iqlim planları ölkələrin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası qarşısında götürdüyü öhdəlikləri əks etdirir və bu sənədlər hər beş ildən bir yenilənərək emissiyaların azaldılması və iqlim dəyişikliklərinə uyğunlaşma tədbirlərini müəyyən edir. Lea Ranalder vurğulayıb ki, şəhərlər həm iqlim dəyişikliklərindən ciddi şəkildə təsirlənir, həm də həllərin əsas hissəsini təşkil edir. Buna görə də şəhərlərin milli iqlim planlarına daxil edilməsi konkret tədbirlərin hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbirdə həmçinin mənzil sektorunun iqlim dəyişiklikləri və şəhər infrastrukturu ilə daha sıx əlaqələndirilməsinin vacibliyi diqqətə çatdırılıb. Qeyd olunub ki, bir çox milli iqlim planında dəniz səviyyəsinin qalxmasının və maliyyə bazarlarının mənzil sektoruna təsiri kimi məsələlər artıq nəzərə alınır.

UN-Habitat rəsmisinin sözlərinə görə, dayanıqlı və aşağıkarbonlu mənzil sisteminin qurulması üçün mənzil siyasəti şəhər infrastrukturu ilə inteqrasiya edilməlidir. Drenaj sistemləri, enerji təminatı, nəqliyyat şəbəkələri və tullantıların idarə olunması kimi xidmətlər yaşayış məhəllələri ilə birlikdə planlaşdırılmalıdır.

"Bu yanaşma mühüm irəliləyişdir. Çünki mənzil artıq yalnız tikili deyil, insanların həyat keyfiyyətini yaxşılaşdıran əsas vasitə və iqlim fəaliyyətinin başlanğıc nöqtəsi kimi qəbul olunur", - deyə Lea Ranalder vurğulayıb.

# WUF13-də mənzil və səhiyyə məsələlərinə dair dialoq təşkil edilib

Mayın 21-də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Davamlı mənzil siyasətləri vasitəsilə səhiyyə nəticələrinin gücləndirilməsi: Mənzil və səhiyyə üzrə çoxsektorlu dialoq" təşkil olunub.

AZƏRTAC xəbər verir ki, "One UN" tədbiri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının (BMT) Avropa üzrə İqtisadi Komissiyası, Ətraf Mühit Proqramı, Məskunlaşma Proqramı, Uşaq Fondu (UNICEF), Fəlakət Risklərinin Azaldılması Ofisi və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) mütəxəssisləri bir araya gələrək, mənzil siyasəti, sosial inklüzivlik, dayanıqlılıq və iqlimə davamlılıq, həmçinin bu amillərin şəhər mühitində sağlamlığa təsirləri mövzusunda dialoq aparıblar.

Tədbirdə Ümumdünya Səhiyyə Təşkilatının nümayəndəsi Natali Roebbel, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Şəhərlər Bölməsinin rəhbəri Gülnarə Roll, UNICEF-in Ətraf Mühit Sağlamlığı üzrə rəhbər Abheet Solomon (videomüraciət), ÜST-ün Azərbaycan nümayəndəliyinin əməkdaşı Turanə Əliyeva və başqaları çıxış ediblər.

Sessiya çərçivəsində bu istiqamətlərin daha uyğunlaşdırılmış və praktik "One UN" həllərinə necə çevrilə biləcəyi, davamlı mənzil siyasətləri vasitəsilə sağlamlıq nəticələrinin necə gücləndirilə biləcəyi müzakirə olunub. Bildirilib ki, mənzil məsələsi insan və ekosistem sağlamlığı, rifah ilə dərin və ayrılmaz şəkildə bağlıdır. Müxtəlif şəhər kontekstlərində mənzil siyasətləri yalnız yaşayış şəraiti ilə deyil, həm də əlçatanlıq, yerləşmə, iqlim və fəlakət risklərinə davamlılıq, əsas xidmət və infrastruktur imkanlarına çıxış, ekoloji rifah və biomüxtəliflik kimi daha geniş struktur amillər vasitəsilə formalaşır. Bunların təhsil nəticələrinə, iqtisadi məhsuldarlığa və digər sahələrə də dolayı təsirləri olur.

BMT sistemi çərçivəsində fəaliyyət göstərən müxtəlif qurumlar uzun illərdir ki, mənzil təminatı məsələlərinə fərqli, lakin bir-birini tamamlayan prizmadan yanaşırlar. Bu qurumların prioritet istiqamətləri fərqlənsə də, onların fəaliyyəti bütövlükdə həssas əhali qrupları üçün, eləcə də qeyri-rəsmi və ya yüksəkriskli şəhər mühitində yaşayan insanların sağlamlıq göstəricilərinin və rifahının yaxşılaşdırılmasına yönəlib. Bu baxımdan, mənzil və səhiyyə məsələlərinin kəsişməsi "One UN" dialoqunun mühüm əlavə dəyər yarada biləcəyi strateji platformadır. Müxtəlif mandat və baxış tərzlərinin konsolidasiyası sayəsində BMT sistemi milli və yerli hökumətlərə pərakəndə yanaşmalardan uzaqlaşmağa, eləcə də insanların sağlamlığını, sosial bərabərliyi və şəhər dayanıqlığını təmin edən daha inteqrasiya olunmuş, çoxsektorlu və çoxsəviyyəli həllərin tətbiqinə yönəlmiş effektiv dəstək göstərə bilər.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Azərbaycanda hazırlanmış ilk milli davamlılıq standartı təqdim edilib

Mayın 21-də Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Azərbaycanın İlk Milli Davamlılıq Standartının Hazırlanması: Davamlı Təcrübələr Standartı (SPS)" mövzusunda sessiya keçirilib.




AZƏRTAC xəbər verir ki, sessiyada şəhər və regional kontekstlərdə davamlılığın praktiki tətbiqini dəstəkləmək məqsədilə Azərbaycanda hazırlanmış ilk milli davamlılıq standartı olan Davamlı Təcrübələr Standartı (Sustainable Practices Standard - SPS) təqdim olunub.

Qlobal davamlılıq çərçivələri ilə yerli tətbiq reallıqları arasındakı boşluğu aradan qaldırmaq məqsədilə EkoSfera Sosial-Ekoloji Mərkəz tərəfindən hazırlanan SPS standart kiçik və orta sahibkarlıq subyektləri, restoran və kafelər, mədəniyyət müəssisələri və muzeylər, fermer təsərrüfatları və kənd təsərrüfatı müəssisələri, xidmət təminatçıları, ictimai və icma məkanları, həmçinin mühafizə olunan təbiət ərazilərinə bitişik ərazilər daxil olmaqla genişspektrli qurumlara tətbiq edilir. SPS yalnız hotellər və ya turizm sektoru ilə məhdudlaşmır və müxtəlif sahələrdə davamlılıq təcrübələrinin inkişafını dəstəkləmək üçün nəzərdə tutulub.

Sessiyada SPS-in potensialın artırılması və keçid aləti kimi necə fəaliyyət göstərdiyi nümayiş etdirilib.

Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev videomüraciətində bildirib ki, bu gün şəhərlər həm iqlim risklərinin, həm də iqlim həllərinin mərkəzində dayanır. Birləşmiş Millətlər Təşkilatının (BMT) Məskunlaşma Proqramının məlumatına görə, şəhər əraziləri qlobal enerjinin təxminən 78 faizini istehlak edir və dünya üzrə istixana qazı emissiyalarının 60 faizindən çoxu şəhərlərdə yaranır. Halbuki Yer səthinin cəmi 2 faizini əhatə edir. Eyni zamanda şəhərlər daşqınlar, istilik dalğaları, quraqlıqlar, fırtınalar və iqlim dəyişikliyi ilə bağlı infrastruktur pozuntuları kimi risklərə daha çox məruz qalır. Bunlar artıq gələcək risklər deyil. Bu gün dünya üzrə milyonlarla insanın gündəlik həyatına, iqtisadiyyatlara, ictimai sağlamlığa və enerji sistemlərinə təsir göstərir. Bu kontekstdə dayanıqlı yanaşmaların əhəmiyyəti getdikcə artır.

Muxtar Babayev bildirib ki, dayanıqlı yanaşmalar dayanıqlılığı abstrakt anlayışdan ölçüləbilən və praktik fəaliyyətə çevirir. Eyni zamanda hesabatlılığı artırır, institusional potensialı gücləndirir, dövlət və özəl sektorlarda resurslardan daha səmərəli istifadəni təşviq edir. Bu baxımdan, Azərbaycanın ilk milli dayanıqlılıq standartının hazırlanması mühüm mərhələdir. Bu, dayanıqlı inkişafın yalnız strategiya və bəyanatlarla məhdudlaşmamalı, həmçinin planlaşdırma proseslərinə, layihə idarəçiliyinə və gündəlik institusional fəaliyyətə inteqrasiya edilməli olduğunu göstərir.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri, WUF13 Təşkilat Komitəsinin üzvü Aygün Əliyevanın sözlərinə görə, beynəlxalq təcrübə göstərir ki, ekoloji idarəetmə standartları effektiv institusional modellər kimi geniş tətbiq olunur. Eyni zamanda ekoloji, sosial və korporativ idarəetmə yanaşmaları (ESG) getdikcə həm dövlət, həm də özəl sektorun qərarvermə proseslərinə inteqrasiya edilir və davamlılıq ölçüləbilən və hesabatlılığa əsaslanan idarəetmə çərçivəsinə çevrilir. Bu baxımdan Azərbaycanın ilk milli dayanıqlılıq təşəbbüslərinin və davamlı təcrübə standartlarının inkişafı xüsusi diqqətəlayiqdir.

"Həmin standart qlobal yanaşmaları yerli icra mexanizmləri ilə birləşdirməyi və davamlılığı praktiki idarəetmə və əməliyyat proseslərinə inteqrasiya etməyi hədəfləyir. Onun əsas üstünlüyü yalnız nəzəri konsepsiya deyil, həm də ölçüləbilən və tətbiq oluna bilən idarəetmə aləti kimi hazırlanmasındadır", - deyə Aygün Əliyeva diqqətə çatdırıb.

Sessiyada çıxış edən Milli Məclisin deputatı Fatma Yıldırım müasir dünyada dayanıqlılığın yalnız ekoloji anlayış kimi qəbul olunmadığını diqqətə çatdırıb. Qeyd olunub ki, bu gün dayanıqlılıq iqtisadi inkişafın, sosial məsuliyyətin və effektiv idarəetmənin əsas sütunlarından birinə çevrilib. Dünyanın qarşıladığı iqlim dəyişiklikləri, urbanizasiya və resurs çatışmazlığı kimi çağırışlar göstərir ki, gələcəyin inkişaf modeli məhz dayanıqlı yanaşma üzərindən qurulmalıdır. Bu baxımdan WUF13-ün Bakıda keçirilməsi olduqca önəmlidir. Bu tədbir Azərbaycanın beynəlxalq platformalarda artan nüfuzunun qlobal inkişaf gündəliyində fəal iştirakının və müasir şəhərsalma siyasətinin göstəricisidir.

Azərbaycanın, eyni zamanda dayanıqlı inkişaf təşəbbüslərini dəstəkləyən məsuliyyətli tərəfdaş kimi çıxış etdiyini deyən F.Yıldırım fikirlərinə belə davam edib: "SPS standartları xüsusi diqqətəlayiq təşəbbüsdür. Çünki ilk dəfə olaraq beynəlxalq dayanıqlılıq prinsiplərinin Azərbaycanın milli reallıqlarına uyğun şəkildə sistemləşdirilməsi və praktik tətbiq modeli təklif olunur. Həmin standart müxtəlif sahələrdə tədbir idarəçiliyindən tutmuş turizm və ictimai məkanlar üzrə xidmət sektoruna qədər məsuliyyətli və davamlı fəaliyyət mexanizmlərinin formalaşmasına xidmət edəcək", - deyə F.Yıldırım qeyd edib.

Hər bir ölkənin özünəməxsus ekoloji problemləri, sosial dinamikası, ənənələri və inkişaf yolu olduğunu bildirən "EkoSfera" Sosial-Ekoloji Mərkəzinin rəhbəri Firuzə Sultan-zadə deyib: "Məhz buna görə yerli davamlılıq sistemləri böyük əhəmiyyət daşıyır. Onlar qlobal prinsipləri insanların real şəkildə tətbiq edə biləcəyi praktik fəaliyyətə çevirir. Biz SPS vasitəsilə beynəlxalq davamlılıq dəyərləri ilə Azərbaycanda yerli peşəkar təcrübə arasında körpü yaratmağa çalışırıq. Bu, ambisiya ilə icra, ekoloji şüur ilə peşəkar mədəniyyət arasında bir körpüdür. Bizim üçün davamlılıq yalnız ətraf mühitin qorunması demək deyil. Bu, həm də təhsil, etik dəyərlər, inklüzivlik, kommunikasiya və uzunmüddətli düşüncə deməkdir. Bu, cəmiyyətlərin təbiətlə, resurslarla və bir-biri ilə məsuliyyətli şəkildə yaşamağı necə öyrəndiyini ifadə edir. Bu gün dünya çox sürətlə dəyişir. İqlim riskləri, şəhər təzyiqləri, biomüxtəlifliyin azalması və sosial parçalanma gündəlik reallığın bir hissəsinə çevrilir. Həmin reallıq fonunda davamlılıq artıq simvolik anlayış olmaqdan çıxmalıdır. Məhz buna görə milli təşəbbüslərin əhəmiyyətinə inanırıq. Çünki qlobal transformasiya həmişə yerli səviyyədən başlayır. Ümid edirik ki, SPS yalnız sertifikatlaşdırma modeli deyil, həm də dialoq, təhsil və əməkdaşlıq platformasına çevriləcək. Bu platforma qurumları, ekspertləri, kommunikasiya imkanlarını və gələcək nəsilləri davamlı inkişaf üçün ortaq məsuliyyət ətrafında birləşdirəcək".

Çıxışı zamanı azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərindən bəhs edən Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyinin böyük məsləhətçisi Nərgiz Qaracayeva bildirib ki, hökumət yalnız əvvəllər mövcud olanı bərpa etmir, eyni zamanda sıfırdan müasir şəhərsalma sistemi yaradır. Məqsəd keçmiş məcburi köçkünlərin dayanıqlı şəkildə məskunlaşdırılmasıdır: "Həyata keçirdiyimiz bütün inkişaf layihələrində biz BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərini rəhbər tuturuq. Əsas məqsədimiz gələcək nəsillər üçün təhlükəsiz gələcək təmin edən, iqtisadi cəhətdən dayanıqlı və möhkəm icmalar qurmaqdır".

Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin baş katibi İlyas Demirci isə təbiəti nəzərə almayan tətbiqlərin uzunmüddətli perspektivdə ciddi risklər yaratdığının artıq açıq şəkildə göründüyünü diqqətə çatdırıb. Bildirilib ki bu baxımdan mühəndislər, memarlar, şəhər planlaşdırıcıları və dizaynerlər böyük məsuliyyət daşıyırlar. "WUF13 tədbirinin əsas vurğularından biri də şəhərlərin gələcəyi, təhlükəsiz yaşayış məkanları və ekoloji həssaslığın artırılmasıdır. Biz Türk Dünyası Mühəndislər və Memarlar Birliyi olaraq inanırıq ki, şəhərlər gələcək nəsillərin hüquqları nəzərə alınaraq planlanmalıdır. Çünki şəhərlər insanların təhlükəsiz yaşadığı, təbii resursların qorunduğu və həyat keyfiyyətinin dayanıqlı olduğu məkanlar olmalıdır. Ətraf mühitin qorunması dövlət qurumlarından fərdlərə qədər hər kəsin ortaq məsuliyyətidir. İnsanların bu mövzuda maarifləndirilməsi, xüsusilə uşaqlardan başlayaraq bütün yaş qruplarında şüurun artırılması çox vacibdir", - deyə o vurğulayıb.

Tədbir panel müzakirə və interaktiv təlimlə davam etdirilib.

# WUF13 çərçivəsində KOB-ların davamlı, inklüziv və dayanıqlı şəhər inkişafında rolu müzakirə olunub

Bakıda davam edən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Urban Expo" sərgisindəki Biznes və İnnovasiya Mərkəzində kiçik və orta biznes (KOB) subyektlərinin davamlı, inklüziv və dayanıqlı şəhər inkişafında roluna dair müzakirələr aparılıb.



AZƏRTAC xəbər verir ki, "Kiçik və orta bizneslərin dayanıqlı, inklüziv və davamlı şəhərlərin qurulmasında əsas iştirakçı kimi rolunun gücləndirilməsi" mövzusunda panel müzakirəsindəki çıxışında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) baş direktoru Zehra Zümrüt Selçuk İƏT-ə üzv ölkələrdə urbanizasiya tempinin dünyanın digər regionları ilə müqayisədə daha sürətli olduğunu deyib. Bildirib ki, dünya şəhər əhalisinin təxminən dörddəbiri İƏT-ə üzv ölkələrdə yaşayır, 2030-cu ilə qədər bu göstəricinin 30 faizə yaxınlaşacağı proqnozlaşdırılır: "İƏT şəhərlərinə nəzər saldıqda görürük ki, bu şəhərlər yalnız əhali baxımından böyümür, eyni zamanda onların bir çoxu iqtisadi fəaliyyətin, innovasiyanın və regional inkişafın mühüm mərkəzlərinə çevrilir".

O, KOB subyektlərinin dayanıqlı şəhər transformasiyasının mərkəzində qalmasını təmin etməyin vacibliyini qeyd edib. "İƏT ölkələrinin KOB-ları arasında əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin təşviqi və ortaq öyrənmə imkanlarının yaradılması xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda KOB inkişaf agentliklərinin fəaliyyətinin müqayisəli şəkildə öyrənilməsi ilə bağlı layihələrin həyata keçirilməsi nəzərdə tutulur. KOB-lar BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə 9, 11 və 13-cü məqsədlərin həyata keçirilməsi ilə sıx bağlıdır. Bu isə göstərir ki, KOB-lara investisiya qoyuluşu cəmiyyətimizin uzunmüddətli rifahına və dayanıqlı inkişafına investisiya qoyuluşudur".

İƏT rəsmisi bildirib ki, KOB-lar iqtisadi strategiyaların həyata keçirilməsində, yerli inkişafın təşviqi, davamlılıq və dayanıqlı inkişaf üçün vacib alətlərdən biridir. Müxtəlif təşəbbüslər vasitəsilə KOB ekosisteminin gücləndirilməsi istiqamətində işlər davam etdirilir və əsas diqqət maliyyə sabitliyi, rəqəmsal transformasiya və ticarətin inkişafına yönəldilir. Bu istiqamət müəssisələrin inkişafı məsul qurumlar və beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. Bu yanaşma yalnız qlobal səviyyədə deyil, həm də yerli iqtisadi inkişaf baxımından mühüm əhəmiyyət daşıyır. Bir çox İƏT və inkişaf etmiş ölkələrdə bu yanaşma göstərir ki, KOB siyasəti artıq yalnız sahibkarlığın inkişafı məsələsi deyil. Bu, eyni zamanda karbon emissiyalarının azaldılması, korporativ məsuliyyətin gücləndirilməsi və dayanıqlı inkişaf prinsiplərinin tətbiqi ilə bağlı strateji yanaşmadır. Bununla belə, KOB-lar müxtəlif çağırışlarla da üzləşirlər. İlk növbədə, KOB-ların rəqabət qabiliyyətinin və inkişaf potensialının artırılması üçün daha güclü dəstək mexanizmlərinin yaradılması vacibdir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışında WUF13-ün Bakıda keçirilməsinin beynəlxalq ictimaiyyətin Azərbaycanın dayanıqlı urbanizasiya, iqlim dayanıqlığı və şəhər innovasiyaları sahəsində artan rolunu yüksək qiymətləndirdiyinin göstəricisi olduğunu deyib. Bildirib ki, WUF13 təcrübə mübadiləsi aparmaq, beynəlxalq tərəfdaşlıqları gücləndirmək və gələcəyin şəhərləri üçün innovativ həlləri müəyyənləşdirmək baxımından mühüm platformadır.

"Bugünkü panel Azərbaycan üçün olduqca əlamətdar bir dövrdə keçirilir. Prezident İlham Əliyev 2026-cı ili ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edib. Bu mühüm qərar hökumətimizin dayanıqlı şəhər inkişafına, müasir memarlığa, ekoloji davamlılığa və daha inklüziv şəhər mühitinin formalaşdırılmasına verdiyi strateji əhəmiyyəti əks etdirir. Bu qərar, həmçinin Azərbaycanın yalnız texnoloji baxımdan inkişaf etmiş və ekoloji cəhətdən dayanıqlı deyil, eyni zamanda iqtisadi cəhətdən dinamik və sosial baxımdan inklüziv şəhərlərin qurulmasına sadiqliyini nümayiş etdirir. Bu baxımdan, bugünkü panelin mövzusu olduqca aktualdır. Əminəm ki, müzakirələr faydalı fikir mübadiləsinə şərait yaradacaq və həm Azərbaycanda, həm də beynəlxalq səviyyədə dayanıqlı şəhər inkişafı istiqamətində əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək", - deyə o vurğulayıb.

Orxan Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə həyata keçirilən şəhərsalma təşəbbüsləri çərçivəsində "ağıllı texnologiya"lar, bərpaolunan enerji mənbələri, müasir infrastruktur və ekoloji memarlıq standartları əsasında tamamilə yeni yaşayış məntəqələri qurulur. Genişmiqyaslı şəhər transformasiyası layihələri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, "yaşıl zona"ların genişləndirilməsi, şəhər infrastrukturunun modernləşdirilməsi və azad edilmiş ərazilərdə dayanıqlılıq prinsiplərinə əsaslanan yenidənqurma işləri ölkəmizin innovativ və gələcəyə yönəlmiş şəhərsalma siyasətinə sadiqliyini nümayiş etdirir. Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi regionun ilk innovativ məskunlaşma modellərindən birinə çevrilib. Layihə bərpaolunan enerji, "ağıllı idarəetmə sistemləri", dayanıqlı kənd təsərrüfatı və rəqəmsal ictimai xidmətləri özündə birləşdirir. Bununla yanaşı, Şuşa və Füzuli şəhərlərində həyata keçirilən genişmiqyaslı yenidənqurma və şəhərsalma layihələri Azərbaycanın müasir, ekoloji dayanıqlı və davamlı şəhər mühitinin qurulmasına sadiqliyini əks etdirir. Bu layihələr inteqrasiya olunmuş və gələcəyə hesablanmış şəhər inkişafının mühüm regional nümunələrinə çevrilməkdədir.

KOBİA-nın İdarə Heyətinin sədri əlavə edib ki, WUF13 kiçik və orta bizneslər üçün beynəlxalq tərəfdaşlarla əlaqələrin qurulması, yeni biznes əməkdaşlıqlarının yaradılması, qabaqcıl təcrübələrin öyrənilməsi və dayanıqlı şəhər inkişafına töhfə verən innovativ məhsul, xidmət və həllərin təqdim olunması üçün dəyərli imkanlar yaradır: "Bu baxımdan, bugünkü panel müzakirəsi KOB-ların dayanıqlı, inklüziv və davamlı şəhərlərin formalaşdırılmasında əsas iştirakçılar kimi rolunun vurğulanması, həmçinin dövlət qurumları, beynəlxalq təşkilatlar və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi üçün mühüm platforma rolunu oynayır. Əminəm ki, bugünkü müzakirələr faydalı fikir mübadiləsinə şərait yaradacaq və həm Azərbaycanda, həm də beynəlxalq səviyyədə dayanıqlı şəhər inkişafı istiqamətində əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcək".

Müzakirələrdə dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri, sahibkarlar və şəhərsalma üzrə mütəxəssislər iştirak ediblər. "Global Oracle Association for Leaders" təşkilatının təsisçisi və prezidenti Leyla Bağırzadə, sənayenin davamlılığı və dairəvi iqtisadiyyat üzrə ekspert Ayaz Salmanov, Beynəlxalq Təbiətin Mühafizəsi İttifaqının Şəhər üzrə Baş Proqram rəhbəri Loredana Skuto, "Rotas Consulting" şirkətinin idarəedici partnyoru Emil Məcidov və "Synergy Consulting Infrastructure & Financial Advisory" şirkətinin ölkə üzrə direktoru Rüfət Qəmbərov çıxış ediblər. Panel müzakirədə KOB-ların innovasiya, "yaşıl texnologiya"lar və rəqəmsallaşma vasitəsilə şəhər inkişafına töhfə verə biləcəkləri qeyd olunub.

Çıxışlarda KOB-ların şəhərlərin dayanıqlı inkişafında mühüm rol oynadığı, onların şəhərsalma siyasətlərində daha fəal iştirakının təmin olunmasının vacibliyi vurğulanıb. KOB-ların innovasiya, "yaşıl texnologiya"ların tətbiqi, dairəvi iqtisadiyyat, resurs səmərəliliyi və rəqəmsallaşma vasitəsilə şəhərlərin daha dayanıqlı və inklüziv inkişafına mühüm töhfə verə biləcəkləri qeyd olunub. Eyni zamanda çıxışlarda KOB-ların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, institusional dəstəyin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın artırılması zəruri istiqamətlər kimi diqqətə çatdırılıb və tədbir iştirakçılarının sualları cavablandırılıb.

Müzakirənin təşkilində əsas məqsəd KOB-ların dayanıqlı şəhər inkişafında rolunun gücləndirilməsi, inklüziv və davamlı şəhər mühitlərinin formalaşdırılmasına töhfələrini artırmaq olub.

# "Boston Consulting Group"un qlobal şəhərlər reytinqinin yeni nəşri

Bakıda davam edən BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Boston Consulting Group" (BCG) qlobal şəhərlər reytinqinin yeni nəşri təqdim olunub.

AZƏRTAC xəbər verir ki, "Dəyişmək üçün qurulub": Şəhərlər gələcək uğrunda necə rəqabət aparır" adlı nəşrin "Urban Expo" sərgisindəki Azərbaycan pavilyonunda baş tutan təqdimatında BCG-nin şəhərlər və regionlar üzrə qlobal seqmentin idarəedici direktoru Vladislav Boutenko ilk hesabatın 2019-cu ildə hazırlandığını, daha sonra iki buraxılışın təqdim olunduğunu və bu gün artıq 4-cü nəşrin təqdim edildiyini deyib.

"Bu hesabatın əsas fərqi ondadır ki, o, şəhərlərə yalnız bir aspektdən baxmır. Nəşrdə təkcə yaşayış rahatlığı, iqlim, iş yerləri və ya nəqliyyatı deyil, bütün bunların hamısını birlikdə araşdırılıb. Burada cavab axtardığımız əsas sual budur: insanlar niyə şəhərlərə gəlirlər və niyə orada qalırlar? Biz bu sualı aşağıdakı əsas ölçülər üzrə təhlil edirik. Birincisi - iqtisadi imkanlardır. Çünki bu gün də insanların şəhərlərə gəlməsinin əsas səbəblərindən biri iş və karyera imkanlarıdır. İkincisi - yaşayış keyfiyyəti. Buraya əlçatanlıq, münasib yaşayış xərcləri, həyat tərzi, təhsil, istirahət imkanları və əlbəttə ki, əyləncə daxildir. Üçüncüsü - sosial kapitaldır. Yəni insanların bir-biri ilə münasibət qurmaq imkanları, qarşılıqlı hörmət, bərabərlik və inklüzivlik. İnsanların özlərini daha böyük bir cəmiyyətin parçası kimi hiss etməsi, dəstək görməsi və öz icmasına güvənməsi çox vacibdir. Burada hökumətlə və şəhər idarəçiliyi ilə qarşılıqlı əlaqə də mühüm rol oynayır. Dördüncü və bir qədər də gözlənilməz amil isə dəyişimin sürətidir. İnsanlar şəhərlərə yalnız bu gün gözəl və rahat olduqları üçün gəlmirlər. Onlar inanırlar ki, həmin şəhərlər sabah daha da yaxşı olacaq. Yəni insanlar şəhərləri çox vaxt bugünkü vəziyyətinə görə deyil, gələcək potensialına görə seçirlər. Bu ölçülərin detalları təqdimatda əks olunub", - deyə o qeyd edib.

Vurğulanıb ki, araşdırma çərçivəsində 5 milyondan çox məlumat nöqtəsi təhlil olunub. Burada geniş statistika, analitik modellər və məlumatların emalı üçün süni intellekt texnologiyalarından istifadə edilib. Amma bir vacib məqamı qeyd etmək istəyirəm - süni intellekt məlumat yaratmaq üçün deyil, yalnız məlumatların işlənməsi üçün istifadə olunub. Süni intellektin toxunduğu bütün nəticələr insan ekspertlər tərəfindən yoxlanılıb və təsdiqlənib. Biz bu işi artıq 7 ildir həyata keçiririk. Yəni bu araşdırmaya hələ süni intellekt geniş yayılmazdan əvvəl başlamışıq. Burada təqdim olunan ilk 80 şəhər, sadəcə, dünyanın ən böyük şəhərləri deyil - onlar insanların yaşamaq və işləmək üçün ən çox seçdiyi şəhərlərdir. Əgər yaşadığınız şəhər bu siyahıdadırsa, hətta 80-ci yerdə olsa belə, bu, çox yaxşı göstəricidir.

"Bəs əsas tendensiyalar hansılardır? Uzun illər şəhərlər əsasən infrastrukturla qiymətləndirilirdi - körpülər, yollar, hava limanları, böyük binalar və sair. Amma bu gün insanlar şəhərləri daha çox nəticələrə görə qiymətləndirirlər. Yəni insanlar özlərinə belə sual verirlər: Bu şəhər mənə konkret nə verir? İnsanlar vaxt qazanmaq, gündəlik həyatda maneələrin azalması və daha yüksək həyat keyfiyyəti istəyirlər. Bir çox şəhər hələ də texniki göstəricilərlə yarışır. Məsələn "mənim səkim daha genişdir", "mənim yolum daha müasirdir". Amma əslində şəhərlər eyni insanlar uğrunda rəqabət aparırlar və getdikcə daha çox şəhər sakinlərin xoşbəxtliyini ölçməyə başlayır. İnsanların niyə özlərini xoşbəxt hiss etdiyini anlamağa çalışırlar. Bu xoşbəxtlik onların vaxta qənaət etməsi ilə bağlıdırmı? Daha rahat həyatla bağlıdırmı? Çünki unutmayaq: insanların vaxtı bu gün ən qiymətli resurslardan biridir. Şəhərlər insanların gündəlik yükünü və vaxt itkisini azalda bilər. Onlar nəqliyyatda sərf olunan vaxtı azalda, uzaqdan iş imkanlarını artıraraq bəzi səfərləri ümumiyyətlə aradan qaldıra bilər", - deyə Vladislav Boutenko bildirib.

BCG-nin şəhərlər və regionlar üzrə qlobal seqmentin idarəedici direktorunun müavini Yekaterina Şapoçka Azərbaycanın paytaxtı Bakının "2014-2024-cü illərdə ən sürətlə dəyişən 20 şəhər" reytinqində ilk 20 şəhər sırasında yer aldığını deyib. Bildirib ki, reytinqdə şəhərlər göstəricilər baxımından sürətlə irəliləyib.

"Dəyişimin sürəti üzrə xüsusilə Çin şəhərləri ilə Xəzər regionunun şəhərləri arasında ciddi rəqabət formalaşır. Bu şəhərlər inkişaf tempinə görə bir-biri ilə yarışır. Biz müxtəlif şəhərlərin dəyişim sürəti baxımından fərqli istiqamətlərdə necə irəlilədiyini müşahidə edirik. Bəziləri innovasiya, infrastruktur və urban transformasiya sahələrində xüsusilə güclü nəticələr göstərir. Məsələn, ümumi dəyişimin sürəti göstəricisinə görə Bakı dördüncü kvintildə yer alır. Bu da şəhərin kifayət qədər yaxşı nəticələr göstərdiyini ortaya qoyur. Xüsusilə yaşayış keyfiyyəti göstəricisi üzrə Bakı demək olar ki, ən yüksək kvintilə yaxındır. Bu isə şəhərin son illərdə keçirdiyi transformasiyanın və inkişafın aydın göstəricisidir", - deyə o vurğulayıb. Qeyd edib ki, reytinqdə şəhərlərin ümumi ölçü göstəricisi, iqtisadi imkanlarda dəyişim sürəti, sosial kapital üzrə transformasiya sürəti, hökumətlə əlaqələrdə dəyişim sürətinə diqqət yetirilib. Sıralamada ilk üçlükdə Şençjen (Çin), Ər-Riyad (Səudiyyə Ərəbistanı) və Daşkənd (Özbəkistan) qərarlaşıb. Bakı isə 20-ci sırada qərarlaşıb.

Təqdimatda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) proqram meneceri Runz Vanq və IND şirkətinin landşaft arxitekturası departamentinin rəhbəri Karina Qarnaqa nəşrlə bağlı fikirlərini bölüşüblər.

Qeyd edək ki, qlobal konsaltinq şirkəti olan BCG-nin baş ofisi ABŞ-nin Massaçusets ştatının Boston şəhərində yerləşir. Qlobal şəbəkəyə malik şirkətin 50 ölkədə 90-dan çox ofisi var. BCG 2010-cu illərin əvvəllərindən Azərbaycanda tərəfdaşlarla əməkdaşlıq etməyə başlayıb. BCG-nin konsaltinq xidmətləri Azərbaycanda yerli, beynəlxalq və dövlət sektoru şirkətlərini əhatə edir.

"Boston Consulting Group", həmçinin Bakı şəhərinin Baş planının hazırlanması işinə cəlb edilib, beynəlxalq strateji məsləhətçi olan BCG-nin dəstəyi ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən paytaxtın inkişaf konsepsiyası işlənilib.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM



# *Şərq ruhlu müasirlik:*
# Mehriban xanım Əliyevanın şəhərsalma missiyası

**Son onilliklər Azərbaycanda həyata keçirilən genişmiqyaslı şəhərsalma və memarlıq layihələri Prezident İlham Əliyevin liderliyi ilə tarixinin ən qüdrətli mərhələsini yaşayan ölkəmizin əsas göstəricilərindən birinə çevrilib. Paytaxt Bakının və digər iri şəhərlərimizin müasir urbanistik məkana transformasiyası, regionlarda infrastrukturun müasirləşdirilməsi, işğaldan azad olunmuş ərazilərimizdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi bu siyasətin mühüm istiqamətlərindəndir.**

Azərbaycanın evsahibliyi ilə paytaxtımızda keçirilən WUF13 (BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası) ölkəmizin bu sahədə əldə etdiyi nailiyyətlərin dünyaya təqdim olunması baxımından böyük imkanlar yaradır. Bu nailiyyətlərin əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var.

### İnsan mərkəzli mühit, tarixi irsə ehtiram və ekoloji tarazlıq

Şəhərlər canlı orqanizmdir, onların da ruhu, yaddaşı və siması var. Qloballaşmanın şəhərləri yeknəsəkləşdirdiyi, tarixi kimliyi sıradan çıxardığı müasir dövrdə milli memarlıq ənənələrini qoruyaraq mütərəqqi dünya standartlarını tətbiq etmək hər bir dövlətin ən çətin və strateji sınaqlarından biridir.

Azərbaycanda bu sınağın uğurlu formulu Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın şəhərsalma fəaliyyətində öz dolğun ifadəsini tapır. Mehriban xanımın rəhbərlik etdiyi layihələr və irəli sürdüyü təşəbbüslər ölkəmizdə yeni bir urbanizm məktəbinin əsasını qoymuşdur. Bu məktəbin təməlində tək bir fundamental prinsip dayanır: insan mərkəzli mühit, tarixi irsə mütləq ehtiram və ekoloji tarazlıq.

İçərişəhərin qədim divarlarından başlamış sənaye tullantılarından təmizlənərək turizm cənnətinə çevrilən Bakı qəsəbələrinə, Leyla Əliyevanın təşəbbüsü ilə canlanan yaşıl məhəllələrdən tutmuş işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun sıfırdan qurulan "ağıllı yaşayış yerləri"nə qədər uzanan bu yol Azərbaycanın müasir simasını formalaşdırır. Ölkəmizin 2026-cı ildə WUF13-ə evsahibliyi etməsi də məhz bu unikal fəaliyyətin qlobal miqyasda qəbul olunan etirafıdır.

Mehriban xanım Əliyevanın fəaliyyətində şəhərsalma və memarlıq məsələləri texniki və estetik sahə olmaqla yanaşı, həm də milli-mədəni irsin qorunması, insan amilinin ön plana çəkilməsi və müasir yaşayış standartlarının formalaşdırılması baxımından strateji əhəmiyyət daşıyır. Birinci xanımın təşəbbüsü və birbaşa nəzarəti ilə həyata keçirilən çoxsaylı layihələrdə milli memarlıq ənənələri ilə müasir urbanistik yanaşmaların uzlaşdırılması xüsusilə nəzərə çarpır. Bakının simasının dəyişməsi məqsədilə həyata keçirilən layihələrdə Mehriban xanımın nəzər-diqqəti və dəst-xəti dərhal hiss olunur. Şəhərin tarixi hissələrinin bərpası, park və ictimai məkanların yenilənməsi, sosial obyektlərin müasir standartlara uyğun qurulması paytaxtımızı hər kəs üçün daha rahat və funksional şəhərə çevirib. Xüsusilə qədim memarlıq nümunələrinin qorunması ilə müasir infrastrukturun uyğunlaşdırılması balanslı inkişaf modelinin formalaşmasına imkan yaradır.

Mehriban xanım Azərbaycanın zəngin memarlıq irsinə milli kimliyimizin ayrılmaz hissəsi kimi yanaşır. Həqiqətən, tarixi abidələr, o cümlədən İçərişəhər kimi qədim şəhər mərkəzləri, məscidlər, karvansaralar, qalalar və digər memarlıq nümunələri xalqın keçmişini, mədəniyyətini, dövlətçilik tarixini yaşadan canlı yaddaşdır. İçərişəhər və Qız qalası Heydər Əliyev Fondunun xarici ekspertlərlə birgə layihələri sayəsində dağılmaqdan xilas edilmiş və bu məkan müasir turizm infrastrukturuna malik tarixi əraziyə çevrilmişdir. Belə memarlıq abidələrinin qorunması milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsi deməkdir. Mehriban xanım da bütün varlığı ilə bu irsə bağlı dövlət xadimi olaraq milli yaddaşı qoruyur, nəsillər arasında qırılmaz bağlılığı təmin edir.

### Daş hekayələr

Qədim memarlıq nümunələri hər bir ölkənin tarixini və sivilizasiya ənənələrini nümayiş etdirən əsas vasitələrdən biridir. Azəraycanın Birinci vitse-prezidenti bu irs işığında həm də ökəmizin zəngin mədəniyyətini dünyaya tanıdır. Mehriban xanımın məqsədyönlü fəaliyyəti sayəsində tarixi abidələrimizin bərpası və beynəlxalq səviyyədə təbliği, bəşəriyyətin maddi irsi siyahısına daxil edilməsi Azərbaycanın mədəni diplomatiyasının bir hissəsinə çevrilib.

Birinci xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu uzun illərdir Azərbaycanın tarixi-mədəni irsinin qorunması, dini və memarlıq abidələrinin bərpası istiqamətində ardıcıl layihələr həyata keçirir. Bu layihələrdə əsas ideya və məqsəd daş və tikililəri qorumaqdan da çox onların daşıdığı tarixi və mənəvi dəyərləri yaşatmaq, bu dəyərlərin hekayəsini canlandırmaqdır.

Bakı həm Şərq, həm də Avropa memarlıq üslublarının unikal sintezidir. Bu simanın qorunması üçün Birinci vitse-prezidentin təşəbbüsü ilə fundamental addımlar atılmışdır. Paytaxtın unikal memarlıq siması bu gün Heydər Əliyev Fondunun birbaşa nəzarəti altında qorunur. Fondun rəhbərliyi ilə UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil olan İçərişəhərin tarixi məkan quruluşuna zərər vermədən aparılan bərpa işləri qədim mühiti müasir turizm infrastrukturuna uğurla adaptasiya etdi. Mehriban Əliyevanın bu sahədəki fəaliyyəti təkcə qədim divarların təmiri ilə məhdudlaşmır, o, tikinti bumu dövründə tarixi binaların sökülməsi təhlükəsinə qarşı vətəndaş cəmiyyətinin səsini dinləyərək prosesləri şəxsi diqqətində saxlayır. Bunun nəticəsidir ki, Bakıda, Gəncədə və Şamaxıda təmir edilərək yenidən qurulan qədim məscidlər, kilsələr və sinaqoqlar bu gün şəhərlərimizin multikultural və tarixi yaddaş simvollarına çevrilib.

Bakı qəsəbələrinin sosial-arxitektur intibahı tarixi irsin qorunması ilə yanaşı, şəhərsalma siyasətində regional balansın tapılması mühüm addımdır. Bu baxımdan Mehriban Əliyevanın təşəbbüsü ilə icra olunan Bakıətrafı qədim qəsəbələrin yenidən qurulması layihələri paytaxtın inkişafını yalnız mərkəzi küçələrlə məhdudlaşdırmır. Uzun illər sənaye və neft tullantıları ilə tanınan Balaxanı qəsəbəsi yeraltı kommunikasiya xətlərinin tamamilə yenilənməsi, ekoloji təmizləmə və fasadların estetik restavrasiyası nəticəsində unikal turizm və sənətkarlıq zonasına çevrilib. Pirşağı, Ramana və Binə kimi qəsəbələrdə aparılan abadlıq işləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən yeni məktəblər, bağçalar və tibb məntəqələri inşa edilib. Bu yanaşma şəhərsalmanı, sadəcə, vizual gözəllik deyil, sakinlərin yaşam keyfiyyətini qaldıran sosial mexanizm kimi təqdim edir. Belə bir siyasətin təməlində tək bir düstur dayanır: milli memarlıq irsinin qorunması ilə müasir urbanizasiya prinsiplərinin harmoniyası.







### Azərbaycanın gələcək inkişaf konsepsiyasının simvolik layihəsi

İşğaldan azad edilmiş ərazilərdə ermənilərin vandalcasına dağıtdıqları tarixi abidələrin Mehriban xanım Əliyevanın təşəbbüsü və nəzarəti ilə bərpası da xüsusi əhəmiyyət daşıyır. Çünki burada söhbət təkcə memarlıq nümunələrinin yenilənməsindən deyil, həm də uzun illər məhv edilmiş mədəni irsin yenidən dirçəldilməsindən gedir. Tarixi Zəfərimizin rəmzi Şuşa da daxil olmaqla azad şəhərlərimizdə, kəndlərimizdə aparılan bərpa-quruculuq işləri bu baxımdan həm mədəni, həm də siyasi-mənəvi məna daşıyır. Şuşada Yuxarı və Aşağı Gövhər ağa məscidləri, Molla Pənah Vaqifin məqbərəsi və Mehmandarovların malikanə kompleksi arxiv sənədlərinə uyğun olaraq dəqiqliklə bərpa edilərək tarixi ruhları özlərinə qaytarılıb.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesi Azərbaycanın gələcək inkişaf konsepsiyasının simvolik layihəsinə çevrilib. Burada müasir şəhərsalma, "yaşıl enerji", milli memarlıq və texnoloji həllərin birləşdirilməsi dövlətin gələcək vizyonu kimi təqdim edilir. Mehriban Əliyevanın həmin ərazilərdə görülən işlərə dəstəyi, diqqəti də müvafiq strateji yanaşmanın vacib tərkib hissəsidir. Təsadüfi deyil ki, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən şəhərsalma layihələri artıq yeni urbanizasiya modelinin nümunəsi kimi təqdim edilir və artıq Qarabağ və Şərqi Zəngəzur Modeli adlanır. Burada əsas məqsəd dağıdılmış şəhər və kəndlərin bərpası ilə yanaşı, həm də müasir texnologiyalar əsasında dayanıqlı yaşayış mühitinin qurulmasıdır. Tarixi irsin bərpasına paralel, ekoloji yanaşma, yaşıl enerji həlləri və insan yönümlü şəhər planlaşdırılması prioritet kimi müəyyənləşdirilib.

Xüsusilə Şuşa şəhərinin bərpası və tarixi simasının qorunması istiqamətində Mehriban xanımın yaxından iştirakı ilə görülən işlər Azərbaycanın mədəniyyət paytaxtının gələcək inkişaf konsepsiyasını formalaşdırır. Həyata keçirilən layihələr şəhərin tarixi ruhunun saxlanılması ilə müasir şəhər infrastrukturu arasında harmoniyanın yaradılmasına hesablanıb. Bu yanaşma Azərbaycanın ümumi şəhərsalma siyasətində də əsas prinsip kimi çıxış edir.

Qədim memarlıq irsinin qorunması turizm, şəhər estetikası və beynəlxalq nüfuz baxımından da vacibdir. Tarixi mühitini qoruyan şəhərlər dünyanın hər yerində daha böyük maraq doğurur və ölkənin yumşaq güc potensialını artırır. Digər tərəfdən şəhərsalma və memarlıq Mehriban xanım Əliyevanın ölkəmizin Birinci vitse-prezidenti kimi icrasında yaxından iştirak edərək böyük töhfələr verdiyi sosial siyasətin çox mühüm istiqamətidir. Azərbaycan dövlətinin Bakıda və ucqarlarda ardıcıl olaraq qurub-yaratdığı yeni parklar, məktəblər, xəstəxanalar, mədəniyyət obyektləri insanların gündəlik həyatına birbaşa təsir edir. Mehriban xanım şəhərlərə tikililər toplusundan daha çox, insan üçün rahat, göz oxşayan yaşayış məkanı kimi yanaşır və ölkənin birinci xanımının təşəbbüsü, rəhbərliyi, nəzarəti ilə həyata keçirilən layihələr də bu qayəni əsaslandırır.

Azərbaycanın Birinci vitse-prezidenti yüksək zövqü, məsələlərə strateji baxış bacarığı ilə şəhərsalma prosesində humanitar və sosial yanaşmanı gücləndirir.

Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın şəhərsalma kontekstində ən böyük və uğurlu təşəbbüsü "Bizim həyət" (və ya geniş yayılan adı ilə "Abad həyət") layihəsidir. 2017-ci ildən icra olunan bu layihə şəhərsalmanın "mikro-urbanizm" sahəsinə aiddir və birbaşa sakinlərin gündəlik yaşam keyfiyyətinin artırılmasına xidmət edir. İndiyə qədər paytaxt və ətraf rayonlarda 150-dən çox geniş məhəllə sahəsi tamamilə yenidən qurularaq on minlərlə sakinin istifadəsinə verilmişdir.

### Milli inkişaf strategiyasının vacib elementi

Müasir dövrdə şəhərlər dövlətlərin inkişaf səviyyəsini, idarəetmə mədəniyyətini və gələcəyə baxışını əks etdirən əsas göstəricilərdən birinə çevrilib. Azərbaycanda son illər həyata keçirilən layihələr göstərir ki, ölkədə şəhərsalma siyasəti sistemli və uzunmüddətli strateji baxış əsasında qurulur. Bu siyasətin həyata keçirilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı, təşəbbüsləri və daim diqqətdə saxladığı məsələlər mühüm rol oynayır. Onun fəaliyyətində şəhərsalma milli inkişaf strategiyasının vacib elementi kimi çıxış edir.

Mehriban Əliyevanın bu sahəyə yanaşmasında diqqətçəkən əsas məqam qədim irslə müasir inkişaf arasında balans yaratmaqdır. Yəni məqsəd yalnız keçmişi qorumaq deyil, onu müasir Azərbaycanın inkişaf konsepsiyası ilə uyğunlaşdırmaqdır. Şəhərlər yaddaş daşıyıcısıdırlar. Əgər inkişaf prosesi yalnız müasir tikinti üzərində qurularsa, şəhər öz kimliyini, tarixi ruhunu itirə bilər. Əksinə, yalnız keçmişi qorumağa yönəlmiş yanaşma şəhərin müasir ehtiyaclara uyğun inkişafını ləngidər. Mehriban xanım memarlıq və şəhərsalma məsələlərinə baxışında, dəstəklədiyi layihə həllərində bu incə cizgini qoruyur. Tarixi irsin bərpası və qorunması ilə şəhərlərimizin xarakteri, milli kimliyi üzə çıxır. Birinci vitse-prezident Bakının mərkəzində, Abşeronun ayrı-ayrı kənd və qəsəbələrində, eləcə də regionlarda bərpa etdirdiyi mədəni məkanlar, qədim küçələr, memarlıq abidələri, tarixi binalarla cəmiyyətin keçmişlə bağını mühafizə edir. Digər tərəfdən Mehriban xanım icrasında yaxından iştirak etdiyi müasir inkişaf layihələri ilə şəhərlərimizin rahat, təhlükəsiz və funksional olmasına kömək göstərir. Müasir nəqliyyat sistemi, yeni kommunikasiya infrastrukturu, ekoloji standartlar, "ağıllı şəhər" texnologiyaları və sosial obyektlər insanların həyat keyfiyyətini artırır.

Azərbaycanda son illər həyata keçirilən şəhərsalma siyasətində milli memarlıq elementlərinin və tarixi mühitin qorunmasına, eləcə də estetik və urbanistik harmoniyaya xüsusi diqqət yetirilir. Bununla şəhərlərimizin həm müasir, həm də özünəməxsus qalması təmin edilir. Bu baxımdan qədim irslə müasir inkişaf arasında balans yaratmaq, sadəcə, memarlıq məsələsi deyil, həm də mədəniyyət, iqtisadiyyat və milli identiklik məsələsidir.

Mehriban xanım Əliyevanın fəaliyyətinin ən mühüm istiqamətlərindən biri də beynəlxalq imiclə bağlıdır. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə indiyə qədər dünyanın müxtəlif ölkələrində tarixi və dini memarlıq abidələri bərpa olunub. Bu fəaliyyət mədəni diplomatiyanın mühüm elementidir və Azərbaycanın multikultural dəyərlərinin, mədəni irsə hörmət ənənəsinin beynəlxalq səviyyədə tanıdılmasında bu layihələrin xüsusi rolu var.

Mehriban xanım Əliyevanın fəaliyyəti Azərbaycanda mədəni irsin qorunması, şəhərsalma mədəniyyətinin inkişafı və sosial-humanitar layihələrin genişlənməsi baxımından mühüm bir mərhələdir. Birinci vitse-prezidentin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən layihələr, qədim irsin qorunması və müasir inkişafın uzlaşdırılması istiqamətində formalaşan yanaşma Azərbaycanın şəhərlərinə həm tarixi dəyər, həm də müasir həyat keyfiyyəti qazandırır. Bu isə ölkənin inkişaf modelində davamlılıq və estetik harmoniyanın əsas prinsipə çevrildiyini göstərir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# WUF13 könüllüləri - peşəkar, mehriban və məsuliyyətli

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) dünyanın müxtəlif ölkələrindən olan dövlət nümayəndələrini, şəhərsalma üzrə mütəxəssisləri, beynəlxalq təşkilatların təmsilçilərini və qonaqları bir araya gətirərək Azərbaycan paytaxtını yenidən mühüm qlobal dialoq məkanına çevirib. "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu altında keçirilən forum şəhərlərin gələcəyi, urbanizasiya prosesləri, ekoloji dayanıqlılıq və müasir yaşayış mühitinin formalaşdırılması ilə bağlı strateji məsələlərin müzakirəsinə geniş imkan yaradıb.

WUF13 yalnız mühüm beynəlxalq platforma deyil, eyni zamanda Azərbaycanın təşkilatçılıq imkanlarının növbəti uğurlu təqdimatıdır. Təsadüfi deyil ki, forum iştirakçılarının xüsusi vurğuladığı məqamlardan biri tədbirin yüksək səviyyədə təşkili, koordinasiya işlərinin peşəkar şəkildə qurulması və qonaqlara göstərilən diqqətdir. Bu uğurda WUF13 könüllülərinin də rolu təqdirəlayiqdir.




WUF13 Könüllülük Proqramı gənclərin liderlik bacarıqlarını inkişaf etdirməyə, innovativ düşüncələrini təşviq etməyə və beynəlxalq təcrübə qazanmaq imkanları yaratmağa xidmət edən platforma kimi əhəmiyyətlidir. Söz düşmüşkən onu da vurğulayaq ki, könüllülər bu möhtəbər tədbirə ötən il foruma hazırlıq prosesində, WUF13 Könüllülük Proqramı çərçivəsində seçiliblər. WUF13 Könüllülük Proqramına marağın böyük olması gənclərin beynəlxalq tədbirlərdə iştirak etməyə yüksək həvəs göstərdiyini bir daha təsdiqləyib. Proqram üzrə qeydiyyat mərhələsinə ümumilikdə 16 min namizəd müraciət edib. Seçim mərhələsində namizədlərin bilik və bacarıqları, ünsiyyət qabiliyyəti, komanda ilə işləmək vərdişləri və motivasiyaları qiymətləndirilib.




Müsahibələri uğurla başa vuran namizədlər üçün bu ilin yanvar-aprel aylarında geniş təlim proqramları təşkil olunub. Bu proqramlar ümumi məlumatlandırma, funksional vəzifələrin bölgüsü və forum məkanlarına hazırlıq mərhələlərini əhatə edib. Mayın 10-11-də isə 2100-dən çox könüllünün iştirak etdiyi təlimlərə yekun vurulub. Gənc könüllülər təlimlər zamanı tədbir məkanı, əməliyyat prosesləri, təhlükəsizlik prosedurları, departamentlər üzrə fəaliyyət istiqamətləri, həmçinin forumun keçirildiyi günlərdə tətbiq olunan əsas qayda və təlimatlarla tanış olublar.

Bu günlər forum məkanında, qeydiyyat zonalarında, sərgi pavilyonlarında, metro stansiyalarında və şəhərin müxtəlif ərazilərində fəaliyyət göstərən yüzlərlə gənc könüllü ilə rastlaşmaq olar. Könüllülər qonaqların qarşılanması, qeydiyyat prosesinin təşkili, istiqamətləndirmə, məlumatlandırma kimi mühüm vəzifələri yerinə yetirirlər. Onların tədbirin rahat və operativ fəaliyyəti sayəsində forum iştirakçıları özlərini rahat hiss edir, tədbirin proqramında nəzərdə tutulan sessiya və görüşlərə maneəsiz və vaxtında qoşula bilirlər.

Onlar ünsiyyət zamanı nümayiş etdirdikləri nəzakət, peşəkarlıq, gülərüz münasibət, məsuliyyətli yanaşma və yüksək kommunikasiya bacarıqları ilə diqqət çəkirlər. Bu baxımdan WUF13 könüllüləri təkcə təşkilati prosesin iştirakçısı deyil, həm də Azərbaycanın qonaqpərvərlik ənənələrinin təmsilçiləridir. Müxtəlif dillərdə ünsiyyət quran, yaranan suallara çevik cavab verən könüllülər ölkəmizin müasir, açıq və fəal gəncliyini layiqli şəkildə təqdim edirlər.

WUF13 könüllüləri bu gün yalnız beynəlxalq tədbirin təşkilati işlərinə dəstək göstərmirlər. Onlar həm də Azərbaycanın müasir simasını, yüksək təşkilatçılıq mədəniyyətini və gənclərin potensialını nümayiş etdirirlər. Gənc könüllülərin məsuliyyətli fəaliyyəti forumun uğurla keçirilməsinə mühüm töhfə verməklə yanaşı, ölkəmizin qlobal tədbirlərə evsahibliyi etmək bacarığını bir daha nümayiş etdirir. Bu isə göstərir ki, Azərbaycan gəncliyi beynəlxalq platformalarda üzərinə düşən missiyanı layiqincə yerinə yetirməyə hər zaman hazırdır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# WUF13 Azərbaycanın çoxşaxəli inkişaf modelinin uğurlu təqdimatıdır



Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) Bakıda keçirilməsi Azərbaycanın çoxşaxəli inkişaf modelinin dünyaya növbəti təqdimatıdır. Bu dəfə Bakı şəhərsalma mədəniyyətinin, memarlıq irsinin mühüm platformalarından biri kimi qlobal diqqət mərkəzinə çevrildi.

182 ölkədən gələn minlərlə nümayəndə, dövlət və hökumət rəsmiləri, beynəlxalq təşkilatların rəhbər və təmsilçiləri, ekspertlər şəhərsalmanın aktual çağırışlarını müzakirə edir, təcrübə mübadiləsi aparır və gələcək perspektivlərinə dair nəticələr formalaşdırırlar.

Ölkəmizin bu mövzuda dünyaya sərgilədiyi zəngin təcrübəsi var. Müasir dövrdə bir çox şəhər sürətli urbanizasiya prosesində öz tarixi simasını və mədəni ruhunu itirmək təhlükəsi ilə üz-üzə qalır. Bizim şəhərlərimiz isə inkişafla tarixi yaddaş arasında incə tarazlığı qoruyaraq, modernləşməni milli-mədəni irsin davamı ilə uzlaşdırmağı bacaran nadir şəhərlər sırasında yer alır.

Forumun açılışındakı çıxışında cənab Prezident İlham Əliyevin vurğuladığı kimi: "Əgər siz Bakıda İçərişəhərin qədim divarları arasında gəzsəniz, sonra bircə küçəni keçsəniz, özünüzü tamamilə müasir mühitdə hiss edəcəksiniz".

Və əslində, bu fikirlər dövlətimizin nəinki, memarlığa yanaşmasını, həm də ümumilikdə siyasətinin fəlsəfəsini əks etdirir: yəni köklərimizə, dövlətçilik ənənələrimizə bağlı qalaraq müasir dünyaya açılmaq.

Azərbaycan Prezidenti çıxışı boyunca mədəniyyətdən, şəhərsalma və memarlıqdan danışsa da, əslində, eyni zamanda milli kimliyimizdən, tariximizdən bəhs etdi. Dövlət başçısı çoxəsrlik şəhərlərimizi, o cümlədən Şamaxını, Naxçıvanı, Gəncəni, Şəkini, Şuşanı dahi şəxsiyyətlərimizin doğulduğu, mədəni ənənələrimizin formalaşdığı mərkəzlər kimi böyük ustalıqla tanıtdı, təbliğ etdi. Bu isə Azərbaycanın maddi-mənəvi dəyərlərinin, qədim dövlətçilik irsinin qlobal auditoriyaya çatdırılması baxımından çox dərin siyasi məna daşıyır.

Çünki şəhər həm də yaddaşdır. Şəhər siyasətdir. Şəhər kimlikdir. Şəhər tarix qarşısında məsuliyyət, gələcək qarşısında öhdəlikdir. Uzun illər erməni işğalı altında qalan, dağıdılan, yerlə yeksan edilən Qarabağın şəhərləri bu gün dövlətimizin iradəsi ilə, gücü ilə yenidən qurulur, dirçəldilir. Şəhərlərimizin əvvəlki siması bərpa edilir.

Bu, ölkəmizin yenidənqurma əzminin fövqündə dayanan, Qarabağın tarixi kimliyini və onun əzəli sakinlərinin bu torpaqlarla bağlılığını aydın şəkildə ifadə edən bir gerçəklikdir. Prezident İlham Əliyevin dediyi kimi: "Məhz torpağın yiyələri bu cür davranırlar".

Bu yanaşma şəhərsalmanı milli dəyərlərin davamı kimi daha geniş kontekstdə dərk etməyə imkan yaradır. Ona görə də forumun Bakıda keçirilməsi beynəlxalq ictimaiyyətə şəhərsalma sahəsində Azərbaycanın nümunəsində daha dərin məzmun qazandırır.

***Günay ƏFƏNDİYEVA,***
***Milli Məclisin deputatı***

# Mənzil təminatı şəhərləri bir araya gətirdikdə: praktikada yerli əməkdaşlıq

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində mayın 21-də "Mənzil təminatı şəhərləri bir araya gətirdikdə: praktikada yerli əməkdaşlıq" adlı panel sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Belçika İnkişaf Agentliyində (ENABEL) yerli idarəetmə üzrə mütəxəssis Odai Əlcəbərinin moderatorluğu ilə keçirilən tədbirdə sahə üzrə beynəlxalq mütəxəssislər, dövlət qurumlarının və bələdiyyə assosiasiyalarının nümayəndələri iştirak ediblər. Sessiyada çıxış edən natiqlər bildiriblər ki, mənzil təminatı ilə bağlı çətinliklər təkcə təklif (mənzil sayının azlığı) məsələsi deyil, buraya həmçinin idarəetmə, maliyyələşdirmə, davamlılıq və ümumilikdə şəhər həyatının keyfiyyəti də daxildir. Tədbirdə mərkəzləşdirilməmiş əməkdaşlığın - xüsusilə də bələdiyyə assosiasiyaları vasitəsilə - mövcud boşluqları doldurmağa kömək edən praktiki infrastruktur rolunu necə oynaya biləcəyi ətrafında müzakirələr aparılıb.

Eyni zamanda mənzil təminatı ilə bağlı mövcud əməkdaşlıq modellərinin qorunması və real nəticələr verməsi, yeni tərəfdaşlıqlara olan ehtiyaclar nəzərdən keçirilib. Qeyd olunub ki, inteqrasiya olunmuş şəhərsalma yanaşmaları - o cümlədən yaşıl ictimai məkanlara və inklüziv məhəllələrə qoyulan investisiyalar daha dözümlü və yaşana bilən şəhərlərin qurulmasına mühüm töhfə verə bilər.

# Şəhərlərin insan psixologiyasına təsiri müzakirə edilib

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində "Neyroşəhərsalma: Şəhərlər beynin formalaşmasına, davranışa və psixi rifaha necə təsir edir?" adlı panel təşkil olunub.




AZƏRTAC xəbər verir ki, panel şəhərsalma, memarlıq, neyroelm və ictimai siyasətin birlikdə şəhər mühitində insanların rifahına, davranışına, stres səviyyəsinə və sosial qarşılıqlı əlaqələrinə necə təsir göstərdiyini araşdırıb.

Paneldə ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər Məktəbinin İctimai işlər üzrə dosenti Anar Vəliyev, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şəhərsalma və ərazilərin inkişafı şöbəsinin müdir müavini Şahnaz Bədəlova, klinik psixoloq, psixoterapevt, Azərbaycan Universitetində neyrobiologiya üzrə müəllim Fidan Seyidbəyli-Əmrahlı, memar, şəhər mühiti üzrə tədqiqatçı və planlaşdırıcı, "Cəlbedicilik Memarlığı" metodologiyasının müəllifi Nani Jgenti, Azərbaycan Memarlar İttifaqının Gənc Memarlar və Tələbələr Birliyinin prezidenti, memar və şəhərsalma mütəxəssisi Elin Baylarov çıxış edərək mövzu ətrafında fikirlərini bölüşüblər.

Natiqlər şəhərlərin insanın düşüncə tərzinə, emosiyalarına və davranışına təsir göstərdiyini, şəhərlərinin inkişafı üçün multidisiplinar əməkdaşlığın zəruri şərtə çevrildiyini və digər mövzuları müzakirə ediblər. Panelin yekun qənaətinə görə, şəhərlər təkcə infrastruktur və mobilliyə deyil, insanların düşüncə tərzinə, emosiyalarına, davranışına və sosial rifahına da təsir göstərir. Eyni zamanda vurğulanıb ki, gələcəyin şəhərlərinin formalaşdırılması memarlıq, şəhərsalma, psixologiya, ictimai siyasət və neyroelm sahələri arasında daha güclü inteqrasiyanı zəruri edir.

# "Secure" modeli müzakirə olunub

BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində mayın 21-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Secure Model-Münaqişədənsonrakı şəhərlərin davamlı və gücləndirici mədəni canlanması" adlı panel sessiya keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə üzv dövlətlərdən nümayəndələr, BMT sistemi təmsilçiləri, vətəndaş cəmiyyəti institutları, mədəni irs üzrə beynəlxalq və yerli ekspertlər, eləcə də akademik dairələrin nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının mədəniyyət nazirinin müavini Fərid Cəfərov Azərbaycanın şəhərsalma, şəhər inkişafı və zəngin mədəni ənənələri sahəsində beynəlxalq səviyyədə tanınan bir ölkə kimi bu mühüm tədbirə evsahibliyi etməsinin əhəmiyyətindən danışıb.

Nazir müavini diqqətə çatdırıb ki, mədəni irsin qorunması təkcə mədəni məsələ deyil, həm də ümumbəşəri humanitar məsuliyyətdir və davamlı inkişafla sabitliyin əsas sütunlarından biridir.

O vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün tam bərpasından sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə genişmiqyaslı bərpa proqramına start verilib. O cümlədən "Böyük qayıdış" proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzura dönüş həyata keçirilir.

"Cəmi bir neçə il ərzində dağıntılar dirçəlişə çevrilib. Azad edilmiş ərazilərdə yeni şəhərlər, kəndlər, körpülər, məktəblər, muzeylər, mədəniyyət müəssisələri və "yaşıl enerji" infrastrukturu inşa olunur. Tarixi məscid və abidələr bərpa edilir, mədəni həyat isə yenidən canlanır", - deyə nazir müavini qeyd edib.

BMT-nin Sivilizasiyalar Alyansının direktoru Nihal Saad videobağlantı ilə çıxışında şəhərlərin yalnız beton və infrastrukturlardan ibarət deyil-onların mədəniyyət, yaddaş və kimlik üzərində qurulduğunu deyib. O diqqətə çatdırıb ki, insan mərkəzli yanaşma və aidiyyət hissinin gücləndirilməsi bu məsələdə əsas rol oynayır.

O vurğulayıb ki, bu kontekstdə irsin dirçəldilməsi mədəniyyətlərarası dialoqun gücləndirilməsində mühüm rol oynayır. "İstər tarixi, istərsə də müasir insan fəaliyyəti ilə formalaşmış irsi canlandırdıqda, biz yalnız keçmişi qorumaqla kifayətlənmirik-müxtəlif icmaların bir-biri ilə qarşılaşdığı, fikir mübadiləsi apardığı və etimad qurduğu ortaq məkanlar yaradırıq. Etimadın qurulması burada əsas şərtlərdən biridir. Bu proses mədəniyyətlərarası dialoqun inkişafı üçün zəruri olan şəraiti formalaşdırır", - deyə o qeyd edib.

Mədəniyyət Nazirliyinin sektor müdiri Araz Bağırlının moderatorluğu ilə keçirilən paneldə UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru Lazar Elundu Assomo, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin baş direktoru Mahmud Erol Kılıç, ICESCO-nun Tərəfdaşlıq və Beynəlxalq Əməkdaşlıq sektorunun rəhbəri Anar Kərimov, AQEM baş katibinin müavini Fərid Dəmirli, ICCROM-un davamlı şəhərsalma və tikilmiş irsin qorunması, fəlakət və iqlim risklərinin idarə olunması, eləcə də böhrandan sonrakı bərpa üzrə proqram meneceri Rohit Cigyasu çıxış ediblər.

Çıxışlarda "Secure" modelinin təqdimatı çərçivəsində münaqişədən sonrakı dövrlərdə şəhərlərin bərpası və yenidən qurulması prosesində mədəni irsin qorunması, şəhər kimliyinin bərpası və icmaların sosial dayanıqlılığının gücləndirilməsi kimi mühüm mövzular müzakirə olunub. Eyni zamanda inklüziv şəhərsalma yanaşmaları, dayanıqlı inkişaf prinsipləri və mədəniyyətin şəhər regenerasiyasındakı rolu barədə geniş fikir mübadiləsi aparılıb.

Çıxışçılar "Secure" modelinin bu istiqamətlər üzrə vahid və sistemli yanaşma təqdim etdiyini vurğulayaraq, mədəniyyətin yalnız qorunmalı irs deyil, həm də şəhərlərin gələcək inkişafını formalaşdıran strateji resurs olduğunu qeyd ediblər.

# *"AnewZ" prodüseri:* "Belə ekran əsərləri Azərbaycanı dünyaya tanıdır"

"BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində "Şəki: Şəbəkə, tarix və sənətkarlığın Azərbaycanın canlı irsini toxuduğu məkan" adlı film nümayiş olundu. Bunun nəticəsində Azərbaycan haqqında çox məlumat öyrəndik".




Bu sözləri AZƏRTAC-a açıqlamasında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak edən "AnewZ" telekanalının aparıcı prodüseri Federiko Naccacce deyib.

"Filmi beynəlxalq auditoriyaya nümayiş etdirmək üçün burada gözəl şərait yaradılıb. Ölkənizdə istedadlı şəxslər çoxdur. Belə ekran əsərlərini izləyən xarici tamaşaçılar Azərbaycanı daha yaxından tanıyaraq ona heyran olurlar ", - deyə o qeyd edib.

# Ortaq strategiya və baxış bucağı

## Azərbaycan Cənubi Qafqazın əsas siyasi və iqtisadi güc mərkəzidir

***Əvvəli 1-ci səh.***

Ölkələrimiz arasında siyasi, iqtisadi-ticari, enerji, nəqliyyat, logistika, sərmayələr və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu bildirilib.

Prezident İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşü iki dost və qonşu ölkə arasında münasibətlərin strateji xarakterini bir daha nümayiş etdirdi. Bu görüş eyni zamanda Azərbaycanın regionda enerji və nəqliyyat bağlantıları baxımından artan rolunun təsdiqidir. Bakı və Tbilisi təkcə ikitərəfli layihələr üzərində işləmir, həm də Şərqlə Qərb arasında mühüm tranzit körpüsü rolunu oynamaq üçün ortaq strategiya yürüdür. Görüşdə siyasi, ticari, enerji və sərmayə sahələrində böyük potensialın olmasının vurğulanması tərəflərin gələcəkdə daha iri layihələrə imza atmaq niyyətində olduğunu göstərir.

İki ölkə arasında imzalanmış sənədlərə Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında təbii qazın Gürcüstana təchizatı barədə Saziş, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında Gürcüstana elektrik enerjisinin təchizatı və elektrik enerjisinin Gürcüstan ərazisi vasitəsilə tranziti barədə Saziş və "Bakı-Tbilisi-Qars" yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda-Türkiyə Respublikası sərhədinə qədər (Kartsaxi) dəmir yolu sahəsinin reabilitasiyası, rekonstruksiyası, inşası üzrə Koordinasiya Şurasının 41-ci iclasının Protokolu daxildir. Sənədlərin tərkibi göstərir ki, tərəflər daha çox iqtisadiyyatın onurğa sütununu təşkil edən sahələrə diqqət ayırırlar.

Gürcüstan ərazisindən elektrik enerjisinin tranzitinə dair saziş hər iki ölkənin "yaşıl enerji" və alternativ dəhlizlər yaratmaq planları ilə üst-üstə düşür. Bu addım enerji bazarında mövqeyimizi daha da şaxələndirir. Bakı-Tbilisi-Qars dəmir yolu ilə bağlı sənəd də xüsusi əhəmiyyət kəsb edir. Çünki bu marşrut Çindən Avropaya qədər uzanan Orta dəhlizin ən mühüm halqasıdır.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze "İmedi LIVE" verilişinə müsahibəsində Azərbaycanda imzalanan sənədlərin misilsiz əhəmiyyətə malik olduğunu deyib. Qaz və nəqliyyat sazişlərinə toxunan hökumət başçısı bildirib ki, bu məsələ elektrik enerjisinin idxalı və tranzitinə, eləcə də son 3 ildə dayandırılmış Bakı-Tbilisi-Supsa boru kəmərinə aiddir: "Ölkə ildə on milyonlarla lari məbləğində potensial gəlir itirirdi. Bu boru kəmərinin fəaliyyəti bərpa olunacaq və bunun üçün də yaxşı şərait var". Kobaxidze Gürcüstanla Azərbaycan arasında sərnişin dəmir yolu nəqliyyatının bərpa olunduğunu da vurğulayıb: "Bütün bu razılaşmalar ölkəmizin iqtisadi cəhətdən möhkəmlənməsi, enerji təhlükəsizliyi və tranzit funksiyamızın gücləndirilməsi üçün fundamental əhəmiyyət kəsb edir. Bir daha Azərbaycan tərəfinə dost münasibətinə və müvafiq razılaşmaya görə təşəkkür etmək istəyirəm".

Baş nazir İrakli Kobaxidzenin imzalanan razılaşmaları yüksək qiymətləndirməsi rəsmi Tbilisinin inkişaf modelini birbaşa Azərbaycanla müttəfiqlikdə gördüyünün rəsmi bəyanı, Bakı ilə münasibətlərə verdiyi önəmin təzahürüdür. Baş nazirin Azərbaycana xüsusi təşəkkürünü ifadə etməsi Bakının çətin iqtisadi və geosiyasi şəraitdə regional tərəfdaşlarına tərəddüdsüz dəstəyindən qaynaqlanır.

Hökumət başçısının dilə gətirdiyi ən mühüm fakt son 3 ildə fəaliyyəti dayandırılmış Bakı-Tbilisi-Supsa neft boru kəmərinin yenidən işə salınması planıdır. Kəmərin fəaliyyətinin bərpa edilməsi həm Gürcüstanın itirilmiş gəlirlərini geri qaytarır, həm də Azərbaycanın neft ixracı marşrutlarının şaxələndirilməsinə kömək edir. Gürcüstanla Azərbaycan arasında sərnişin dəmir yolu nəqliyyatının bərpa edilməsi isə sosial və turizm baxımından böyük sıçrayış deməkdir. Bu işgüzar və humanitar əlaqələr daha da stimullaşdırılacaqdır.

Nəticə etibarilə Bakıda imzalanan tarixi sazişlər və bərpaolunan nəqliyyat-enerji xətləri Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının növbəti nümayişidir. Ortaq və uzaqgörən strategiya bütövlükdə Cənubi Qafqazda uzunmüddətli sabitliyin və təhlükəsizliyin təminatçısı rolunda çıxış edir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan çayı yenidən FAO-nun Baş qərargahında təqdim edilib

**Azərbaycan BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 21 May - Beynəlxalq Çay Günü ilə əlaqədar təşkil etdiyi tədbirdə təmsil olunub.**

AZƏRTAC xəbər verir ki, "Çay sənayesini davamlılığını təmin etmək, yerli icmaları dəstəkləmək" şüarı ilə keçirilən builki tədbirdə çayın mədəni irsə və aqroərzaq sistemlərinin dayanıqlığına verdiyi töhfələr, eyni zamanda çay yetişdirən icmaların əhəmiyyəti vurğulanıb.

FAO-nun baş direktoru Qu Donqyu tədbirdə çıxış edərək bildirib ki, bu gün adi bir gün deyil, həm də həyatı çayla bağlı olan insanların, mədəniyyətlərin, adət-ənənələrin və icmaların günüdür.

Baş direktor çayın nəsillər boyu ailələri, qonşuları, dostları və xalqları bir araya gətirdiyini, sadəcə, bir məhsul deyil, daha böyük dəyər kəsb etdiyini vurğulayıb. Qeyd edib ki, çayçılıq xüsusilə kənd yerlərində yaşayan milyonlarla insan üçün mühüm gəlir mənbəyidir. Qu Donqyu çıxışında digər ölkələrlə yanaşı, Azərbaycanda da bu sektorun inkişaf etdiyini və artıq illərdir ki, ölkəmizin FAO-dakı bu təşəbbüsdə aktiv iştirak etdiyini bildirib.

Sərgidə təqdim olunan Azərbaycan çayları, balları, mürəbbələri, milli şirniyyatları və quru meyvələri iştirakçıların böyük marağına səbəb olub. FAO-nun baş direktoru Azərbaycan stendi ilə tanış olub, milli təamlardan dadıb.

Xatırladaq ki, 2019-cu ildə BMT Baş Assambleyasında mayın 21-nin Beynəlxalq Çay Günü elan olunması barədə qətnamə qəbul edilib və FAO-da silsiləvi təbdirlər 2020-ci ildən keçirilir. Builki Beynəlxalq Çay Gününün qeyd edilməsi tədbirində Azərbaycanla yanaşı, Türkiyə, Çin, Kanada, Rusiya, Şri-Lanka, İndoneziya, Keniya milli stendlərlə iştirak edib, Çinin Haynan əyalətindən olan Vucişan Yağış Meşəsi Uşaq Xoru musiqi nömrələri ifa edib, İndoneziyanın ənənəvi Angklung musiqisi təqdim olunub.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib





Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.

Görüşdə dövlət başçılarının məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Çin münasibətlərinin dostluq və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib.

Görüşdə mayın 17-də Bakıda öz işinə başlayan və Çinin yüksəksəviyyəli nümayəndə heyətinin də təmsil olunduğu BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyasının qlobal urbanizasiya gündəliyi ilə əlaqədar aktual mövzuların müzakirəsi və beynəlxalq müstəvidə dayanıqlı şəhərsalma siyasətinin təşviqi baxımından əhəmiyyəti qeyd olunub. Forum çərçivəsində mayın 18-də Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçi arasında keçirilən görüşün əhəmiyyəti vurğulanıb. Separatizmin bütün forma və təzahürlərini pisləyən Azərbaycanın "Vahid Çin" siyasətinə, həmçinin Çinin ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstəyinin müstəsna önəm daşıdığı bildirilib.

Görüş zamanı YAP ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin sürətli inkişafından məmnunluq ifadə olunub. 2024-cü ilin noyabrında hakim partiyalar arasında imzalanmış əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib. 2026-cı il 11-15 may tarixində YAP nümayəndə heyətinin dost ölkəyə səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin həm partiyalar, həm də dövlətlər arasında münasibətlərin inkişafına xidmət etdiyi vurğulanıb. Təmasların intensivləşdirilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin və birgə layihələrin həyata keçirilməsinin önəminə diqqət çəkilib.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səfər zamanı göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Çin Kommunist Partiyasının rəhbərliyinə və səfirə təşəkkürünü bildirib. O, əməkdaşlığın dərinləşdirilməsinə hədəflənən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində bundan sonra da ardıcıl nailiyyətlərin qazanılacağına inamını ifadə edib. Səfir Lu Mey YAP nümayəndə heyətinin səfərlə bağlı xoş təəssüratlarının məmnunluq doğurduğunu diqqətə çatdırıb. Çinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edən səfir qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadənin vacibliyinə toxunub.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru akademik Urxan Ələkbərov isə səfər çərçivəsində DİA ilə ÇKP Mərkəzi Komitəsinin Ali Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi və kadr hazırlığı sahəsində əhəmiyyətini nəzərə çatdırıb. Görüşdə cari ildə nəzərdə tutulan tədbirlər, partiyalararası əməkdaşlığın gələcək istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Milli Məclislə MDB PA arasında səmərəli əməkdaşlıq var

Mayın 21-də Milli Məclisin Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasında (MDB PA) nümayəndə heyətinin üzvləri Mübariz Qurbanlı və Göydəniz Qəhrəmanov BMT-nin Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasında (WUF13) iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan MDB PA-nın nümayəndələri ilə görüşüblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Milli Məclisin deputatları ölkəmizdə keçirilən WUF13 forumunun əhəmiyyətindən, eləcə də Azərbaycanda urbanizasiya sahəsində həyata keçirilən islahatlardan və görülən işlərdən danışıblar.

Söhbət zamanı Azərbaycanın MDB PA-da fəaliyyəti, parlamentlərarası əməkdaşlıq əlaqələrinin inkişafı və bu istiqamətdə aparılan işlər diqqət mərkəzində olub. Milli Məclisin Sədri Sahibə Qafarovanın MDB PA-nın şura iclasında və 60-cı plenar sessiyada iştirak etmək məqsədilə Rusiya Federasiyasına etdiyi səfərin əhəmiyyəti vurğulanıb.

Görüşdə qeyd olunub ki, bu cür platformalar üzv ölkələr arasında dialoqun gücləndirilməsinə, qanunvericilik sahəsində təcrübə mübadiləsinə və regional əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verir.

Görüşdə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının Aqrar məsələlər komitəsinin üzvü Aleksey Lavrinenko və MDB PA Şurası Katibliyinin ekspert və analitik idarəsinin model qanunvericiliyin təmin edilməsi şöbəsinin müşaviri Nataliya Amburtseva çıxış ediblər. Çıxışlarda WUF13 forumunun beynəlxalq əməkdaşlığın təşviqi, şəhərsalma və urbanizasiya sahəsində aktual məsələlərin müzakirəsi baxımından əhəmiyyəti vurğulanıb, Azərbaycanın yüksəksəviyyəli təşkilatçılığı xüsusi qeyd olunub. Həmçinin MDB PA ilə Milli Məclis arasında mövcud olan səmərəli və yüksəksəviyyəli əməkdaşlıq münasibətlərinə toxunulub.

Daha sonra çıxış edən Özbəkistan Respublikasının Qanunvericilik Palatasının Sahibkarlıq, rəqabətin inkişafı və sənaye məsələləri üzrə komitəsinin üzvü Boriy Alixanov Azərbaycanın evsahibliyi ilə keçirilən WUF13 tədbirinin əhəmiyyətindən bəhs edərək, bu mötəbər forumun qlobal urbanizasiya çağırışlarının müzakirəsi və dayanıqlı şəhər inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi baxımından xüsusi rol oynadığını qeyd edib. O həmçinin Özbəkistan Prezidentinin tədbirdə iştirak məqsədilə Azərbaycana səfərinin ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin bariz göstəricisi olduğunu vurğulayıb. Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişafının vacibliyi də diqqətə çatdırılıb.

***"Azərbaycan"***

# Milli Observatoriya ilə Psixologiya Elmi-Tədqiqat İnstitutu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya ilə psixoloji elmi araşdırmalar aparan Psixologiya Elmi-Tədqiqat İnstitutu arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.



Sənədi Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli və institutun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Rüstəmov imzalayıblar.

Görüşdə çıxış edən E.Səfərli qurum tərəfindən aparılan təhlillərə toxunaraq bildirib ki, əmək bazarında peşə seçimləri zamanı yalnız statistik göstəricilərə əsaslanmaq kifayət etmir. Qərarların daha dəqiq və dayanıqlı olması üçün onlar mütləq psixoloji təhlillərlə zənginləşdirilməlidir.

Qeyd olunub ki, işçilərin motivasiyası, adaptasiya bacarıqları və psixososial vəziyyətləri nəzərə alınmadan dayanıqlı məşğulluq siyasətini formalaşdırmaq mümkün deyil.

E.Rüstəmov isə çıxışında psixoloji xidmətlərin roluna diqqət çəkib. O bildirib ki, insanların psixi sağlamlıqlarının qorunması, sosial adaptasiyanın gücləndirilməsi, eləcə də təhsil və əmək bazarı kimi sahələrdə dayanıqlı inkişafın təmin edilməsi mühüm əhəmiyyət daşıyır.

Sənəddə tərəflər əməkdaşların psixoloji dayanıqlılıqlarının artırılması və liderlik bacarıqlarının inkişaf etdirilməsi məqsədilə birgə seminar və master-klasların təşkili, işçi qüvvəsinin psixoloji profilinin qiymətləndirilməsi üçün müvafiq alətlərin hazırlanması, həmçinin əlilliyi müəyyən edilmiş şəxslərin və onların valideynlərinin psixoloji rifah səviyyələrinin öyrənilməsi istiqamətində birgə fəaliyyət həyata keçirməyi nəzərdə tutublar.

***"Azərbaycan"***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin iyun ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 4,18 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 5,19,25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi**<br>Səttarov Orxan Rəcəb oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 17 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 19 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 22 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | 23 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 23 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 25 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 24 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 79**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111**

# BMT-nin Baş katibinin müavini Azərbaycana səfərə gəlib

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini xanım Amina Mohammed Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında (WUF13) iştirak etmək məqsədilə mayın 21-də Azərbaycan Respublikasına səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı rəsmi şəxslər qarşılayıblar.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Ombudsman Aparatı arasında Əməkdaşlıq Memorandumu imzalanıb









Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Azərbaycan Respublikasının Ombudsman Aparatının nümayəndələri ilə görüş keçirilib.

Görüşdə konfederasiya sədri Sahib Məmmədov Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin hərtərəfli inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini, insan hüquq və azadlıqlarının, o cümlədən əmək hüquqlarının etibarlı şəkildə qorunduğunu vurğulayıb. Bu sahədə önəmli rola malik olan Ombudsman institutu ilə səmərəli əməkdaşlıq həyata keçirilir.

Görüşdə həmkarlar ittifaqları sistemində rəqəmsallaşma, elektron xidmətlərin genişləndirilməsi və üzvlər üçün daha əlçatan mexanizmlərin yaradılması istiqamətində görülən işlər, aparılan islahatlar, reallaşdırılan layihələr, həmçinin maarifləndirmə, gender bərabərliyinin və sağlam əmək mühitinin təmin olunması sahəsində həyata keçirilən tədbirlər barədə məlumat verilib.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman), AHİK-in layiqli əmək səfiri Səbinə Əliyeva iki qurum arasında imzalanacaq memorandumun insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusilə əmək və sosial-iqtisadi hüquqların daha effektiv təmini və bu sahədə institusional əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Səbinə Əliyeva Ombudsman təsisatı ilə həmkarlar ittifaqları arasında əməkdaşlığın insan hüquqlarının, əmək və sosial-iqtisadi hüquqların daha səmərəli müdafiəsinə, eləcə də hüquq mədəniyyətinin inkişafına mühüm töhfə verəcəyini diqqətə çatdırıb. Qeyd olunub ki, sənəd həmçinin iki qurum arasında əməkdaşlığın yeni mərhələsinin əsasını təşkil etməklə yanaşı, mövcud əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcək.

Sonra AHİK ilə Ombudsman Aparatı arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumda AHİK və Ombudsman Aparatı arasında əməkdaşlığın gücləndirilməsi, əmək və sosial hüquqların müdafiəsi, birgə təlimlərin keçirilməsi və digər məsələlər nəzərdə tutulur.

Görüş çərçivəsində AHİK-in fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***

# "Azərenerji" və "Azərişıq" energetika və şəhərsalma mövzusunda təqdimat keçirib






**Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan beynəlxalq sərgidə birgə iştirak edən "Azərenerji" və "Azərişıq" ASC-lər "Elektroenergetika obyektlərinin tikintisində şəhərsalma memarlığının Azərbaycan nümunəsi" mövzusunda təqdimat keçiriblər.**

Təqdimatda elektroenergetika sahəsində şəhərsalma və memarlıq prinsiplərinin tətbiqi, enerji infrastrukturunun inkişafında müasir yanaşmalar, eləcə də Azərbaycanda həyata keçirilən layihələrin xüsusiyyətləri barədə məlumat verilib. Enerji obyektlərinin şəhər mühitinə uyğunlaşdırılması, estetik və funksional memarlıq həlləri, ekoloji amillərin nəzərə alınması və dayanıqlı inkişaf prinsiplərinin əhəmiyyəti vurğulanıb.

Təqdimatın məqsədi Azərbaycanın bu sahədə təcrübəsinin paylaşılması və elektroenergetika infrastrukturu ilə şəhərsalma arasında qarşılıqlı əlaqənin inkişaf etdirilməsi olub.

***N.ƏSGƏROVA, "Azərbaycan"***

# "Azərenerji", "TotalEnergies" və SOCAR arasında görüş

**"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev, "TotalEnergies" şirkətinin idarəedici direktoru Emmanuel de Guillebon və SOCAR-ın vitse-prezidenti Babək Hüseynov arasında görüş keçirilib.**

Əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılan görüşdə əsas müzakirə mövzusu Abşeron qaz yatağının ikinci fazası çərçivəsində nəzərdə tutulan qaz emalı zavodunun elektrik təchizatı məsələsi olub.

***N.ƏSGƏROVA, "Azərbaycan"***



# "AzerGold" QSC-nin İdarə Heyətinin sədri ilə Esvatini Kralı arasında görüş olub





Mayın 20-də ölkəmizdə səfərdə olan Esvatini Kralı Əlahəzrət III Msvatini ilə "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov arasında görüş keçirilib.

Görüş çərçivəsində Azərbaycan ilə Esvatini Krallığı arasında münasibətlərin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. "AzerGold" QSC-nin Mətbuat xidmətinin məlumatına görə, xüsusilə dağ-mədən sənayesində əməkdaşlıq imkanları, geoloji kəşfiyyat və qiymətləndirmə sahəsində qabaqcıl təcrübənin tətbiqi, həmçinin potensial birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Nümayəndə heyətləri mineral ehtiyatların kəşfiyyatı, mədənlərin işlənməsi və emal zənciri üzrə əlavə dəyərin yaradılması, eləcə də mineral ehtiyatların xəritələşdirilməsi istiqamətində əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər. Görüşdə dağ-mədən sahəsi üzrə əlaqələrin genişləndirilməsi və təcrübə mübadiləsinin gücləndirilməsinin hər iki ölkə üçün faydalı olacağı qeyd edilib.

# Azərbaycan ilə Esvatini Krallığı arasında dağ-mədən sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb







**Mayın 20-də Azərbaycan Respublikası və Esvatini krallığı arasında dağ-mədən sənayesinin inkişafını təşviq edəcək əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu barədə qurumun Mətbuat xidmətindən məlumat verilib.**

Sənəd Azərbaycan Respublikası tərəfindən "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İdarə Heyətinin sədri Zakir İbrahimov və Esvatini Krallığının təmsilçisi qismində təbii sərvətlər və energetika naziri, şahzadə, zati-aliləri Lonkhokhela tərəfindən imzalanıb.

İkitərəfli əməkdaşlığa dair sənəd dağ-mədən sənayesinin inkişafı, geoloji kəşfiyyat, texniki əməkdaşlıq və investisiya imkanları kimi istiqamətləri əhatə edir və iki tərəf üçün də yeni imkanlar yaradır. Memoranduma əsasən, "AzerGold" QSC və Esvatini Krallığının Təbii Sərvətlər və Energetika Nazirliyi geoloji, kommersiya və normativ məlumatların mübadiləsi, geoloji kəşfiyyat işləri, laboratoriya sınaqları, mineral resursların qiymətləndirilməsi, eləcə də texniki-iqtisadi əsaslandırma tədqiqatlarının həyata keçirilməsi sahələrində əməkdaşlıq edəcəklər. Bununla yanaşı, memorandum çərçivəsində tərəflər mümkün birgə layihələrin, investisiya modellərinin və xidmət müqavilələrinin nəzərdən keçirilməsi istiqamətində fəaliyyət göstərəcəklər. Sənədə uyğun olaraq birgə işçi qruplarının yaradılması, qarşılıqlı səfərlərin təşkili, məlumat və təcrübə mübadiləsinin aparılması, yeni biznes əlaqələrinin qurulması imkanlarının araşdırılması, eləcə də konfrans, seminar və digər birgə tədbirlərin təşkili nəzərdə tutulur.

İmzalanan memorandum iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsinə və dağ-mədən sektorunda uzunmüddətli tərəfdaşlığın inkişafına xidmət edəcək.

# "Azərişıq" ASC-nin nümayəndələri Naxçıvanda fermer və sahibkarlarla görüşüblər





**Cənab Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, "Azərişıq" ASC fermer, sahibkar və vətəndaşların rahat fəaliyyəti, yaranan çətinliklərin aradan qaldırılması məqsədilə Naxçıvanda görüş keçirib.**

Ordubad Elektrik Şəbəkəsinin (EŞ) binasında keçirilən görüşdə 30-dək sahibkar və yerli sakin iştirak edib. Tədbirdə "Azərişıq" ASC-nin "ASAN xidmət"lə İş Departamentinin direktoru İnam Yusifov, Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Vaqif Mustafayev, Naxçıvan Regional Enerji Təchizatı və Satışı İdarəsinin (RETSİ) rəisi Nəriman Mahmudov, Ordubad Rayon İcra Hakimiyyətinin başçısının müavini Rəşadət Orucov iştirak ediblər.

Görüş zamanı fermer, sahibkar və vətəndaşlara cənab Prezident İlham Əliyevin tapşırıqlarına əsasən "Azərişıq" ASC-nin regionlarda həyata keçirdiyi yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verilib. Bildirilib ki, ölkənin bütün regionlarında yeni güc mərkəzləri, müasir yarımstansiyalar tikilir, ən müasir standartlara cavab verən transformator məntəqələri qurulur, yeni dayaqlar basdırılır, Özünüdaşıyan İzolyasiyalı Naqillərdən (ÖİN) istifadə edilərək yeraltı və yerüstü xətlər çəkilir.

Həmçinin tədbir iştirakçıları elektron xidmətlər barədə məlumatlandırılıb. Xidmət mərkəzlərində vətəndaşlara göstərilən xidmətlər haqqında maarifləndirici söhbət aparılıb.

Tədbirdə yeni elektrik təchizatı şəbəkəsinə qoşulma prosesi, texniki şərtlərin verilməsi və ödəniş qaydaları izah edilib. Bununla yanaşı, vətəndaşların daha çox müraciət etdikləri digər xidmətlər - abonentin balansındakı avadanlıqlara texniki xidmət göstərilməsi, çoxmənzilli binalarda yaşayış mənzillərinin qeydiyyatı, sayğac zədələnməsi hallarında görüləcək tədbirlər, qeyri-əhali abonentlərinin ad dəyişikliyi prosedurları, smart kartın və qüsurlu ödənişlərin bərpası xidmətləri barədə ətraflı məlumatlar verilib, onların sualları cavablandırılıb. Eyni zamanda həm "ASAN xidmət" mərkəzlərində, həm də elektron platformalar üzərindən təqdim edilən bütün xidmətlər barədə geniş məlumat verilib. Vətəndaşların və sahibkarların müraciətlərinin daha asan və sürətli həlli üçün yaradılan imkanlar vurğulanıb. Abonentlərin ofis və evlərindən çıxmadan onlayn qaydada quruma müraciətetmə imkanları ətraflı izah olunub. İştirakçıların müxtəlif məsələlərlə bağlı sualları dinlənilib, qaldırılan bəzi problemlər yerindəcə həll olunub.

"Azərişıq" ASC ölkənin bütün regionlarında maarifləndirici tədbirlər, görüşlər keçirir. Fermer və sahibkarların təklif, tövsiyələri dinlənilir, mövcud problemlərinin həlli istiqamətində işlər aparılır. Görülən bütün işlər abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına, elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

***Bəhmən MİRZƏYEV, "Azərbaycan"***

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU

WUF13

WORLD URBAN FORUM

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>17, 24 (Bakı şəhəri) | Mais Günəşov +99451 277 0025<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10 (Naxçıvan MR, Şərur rayonu)<br>20 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11 (Yardımlı rayonu) 24 (Masallı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 01 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04 (Hacıqabul rayonu) 25 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 06, 07 (Ağcabədi rayonu)<br>20, 21 (Füzuli rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 06 (Salyan rayonu)<br>13 (Biləsuvar və Neftçala rayonları) | Emin Xudiyev +99450 451 2676<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 14, 28 (Tovuz rayonu)<br>15, 29 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 13, 20 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 01, 25 (Sumqayıt şəhəri) | Soltanov İltifat +99470 860 8644<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 04, 25 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99451 277 3003<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 13, 20 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Aran Səyyad Adil oğlu** | 13 (İmişli rayonu) 20 (Saatlı rayonu) | Pərvin Mahmudov +99450 255 1388<br>Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 13. | **Arpadarai Nigar Cavid qızı** | 10, 24 (Bakı şəhəri) | Nuru Əliyev +99450 341 7126<br>7sayli_sd@meclis.gov.az |
| 14. | **Aslanov Novruzəli Davud oğlu** | 04, 11, 18, 25 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 15. | **Badamov Azər Camal oğlu** | 09, 23 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Kamran Fərhad oğlu** | 13 (Göygöl rayonu)<br>20 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 17. | **Bayramov Vüqar İbad oğlu** | 11, 19 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 18. | **Bədəlov Bədəl Şamil oğlu** | 13 (Goranboy rayonu)<br>27 (Naftalan şəhəri) | Gündüz Hacıyev +99450 364 9426<br>96sayli_sd@meclis.gov.az |
| 19. | **Bülbüloğlu Polad** | 10, 24, 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Aydan Hüseynova +99450 777 6725<br>124sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərov Kamal Xaqani oğlu** | 03, 13 (Sabirabad rayonu) | Nazim Çələbiyev +99451 277 6000<br>68sayli_sd@meclis.gov.az |
| 21. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 06 (Goranboy rayonu)<br>20 (Gəncə şəhəri) | Sahib Əmiraslanov +99450 627 9252<br>41sayli_sd@meclis.gov.az |
| 22. | **Cəfərova Tamam Şaməmməd qızı** | 10, 24 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>Nigar Aslanova +99450 5963438<br>88sayli_sd@meclis.gov.az |
| 23. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 13 (Göyçay rayonu) 25 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 24. | **Əfəndiyeva Günay Elçin qızı** | 10, 17 (Bakı şəhəri) | Vəfa Mürşüdlü +99450 379 0095<br>14sayli_sd@meclis.gov.az |
| 25. | **Ələkbərov Əziz Yusif oğlu** | 13, 27 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 26. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 18, 25 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 27. | **Əliyeva Jalə Fazil qızı** | 22 (Zərdab rayonu) 23 (Kürdəmir rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 28. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 06, 20 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067<br>27sayli_sd@meclis.gov.az |
| 29. | **Əmiraslanov Azər Kamal oğlu** | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 10, 24 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 30. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 20, 27 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 31. | **Əsədov Heydər Xanış oğlu** | 18, 25 (Şirvan şəhəri) | Arif Qasımov +99450 3195888<br>51sayli_sd@meclis.gov.az |
| 32. | **Əsgərov Asif Yunis oğlu** | 06, 13 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 33. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 13, 27 (Şəki şəhəri) | Turan Salamov +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 34. | **Fətəliyeva Sevinc Həbib qızı** | 04, 18 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 35. | **Fətiyev Xanlar Nuru oğlu** | 11, 25 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 36. | **Gəncəliyev Tural Babaşah oğlu** | 02, 17 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 37. | **Hacıyev Sabir Kamal oğlu** | 03, 17 (Göyçay rayonu) | Orxan Rzayev +99410 110 0159<br>91sayli_sd@meclis.gov.az |
| 38. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 12, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 39. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 04, 18 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 40. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 13, 20 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Malik Əvəz oğlu** | 06, 27 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənov Nurlan Urfan oğlu** | 12, 19 (Şəmkir rayonu) | Anar Quluyev +99499 299 5599<br>103sayli_sd@meclis.gov.az |
| 43. | **Həsənova Afət Əbil qızı** | 10, 17 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynli Əli Məhəmməd oğlu** | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 06, 30 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynov Aydın Nəsir oğlu** | 09, 16 (Bakı şəhəri) | Vüsal Yusifov +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Hicran Kamran qızı** | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 25 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 47. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 13, 27 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 277 0749<br>104sayli_sd@meclis.gov.az |
| 48. | **Xasayeva Səbinə Səməd qızı** | 03, 11 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 04, 18 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimli Fəzail Feyruz oğlu** | 12, 27 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/<br>+99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 51. | **İbrahimov Eldar Rza oğlu** | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 20 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 52. | **İsgəndərov Anar Camal oğlu** | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 27 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 53. | **İskəndərov Vüqar Yapon oğlu** | 06, 20 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov İmamverdi İbiş oğlu** | 06, 13 (Sumqayıt şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılov Şahin Əmir oğlu** | 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 06, 20 (Beyləqan rayonu) | Çingiz Səfərov +99450 277 9536<br>83sayli_sd@meclis.gov.az |
| 56. | **İsmayılzadə Fariz Akif oğlu** | 12, 19 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7882<br>77sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimli Azər Şəmşid oğlu** | 06, 20 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 58. | **Kərimzadə Pərvin Orxan qızı** | 03, 24 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 277 0368<br>39sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 17, 24 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 60. | **Qafarov Vasif Vaqif oğlu** | 06 (Astara rayonu) 20 (Lerik rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 61. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 26 (Bakı şəhəri) 28 (Şəki şəhəri) 30 (Tərtər rayonu) | Anar Əliyev +99470 255 9484<br>123sayli_sd@meclis.gov.az |
| 62. | **Qədirli Erkin Toğrul oğlu** | 08, 22 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 63. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 04, 17 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Azay Əjdər oğlu** | 10, 24 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Eldar Allahyar oğlu** | 07, 21 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Musa İsa oğlu** | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 27 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 67. | **Quliyev Ülvi Zahid oğlu** | 04, 18 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 04 (Şəmkir rayonu) 18 (Bakı şəhəri) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 01, 24 (Oğuz şəhəri) | Səxavət Kərəmov +99470 510 6968<br>117sayli_sd@meclis.gov.az |
| 70. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 23 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 71. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 06, 20 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 72. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 06, 20 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 20, 28 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 74. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 06, 20 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədli Müşfiq Fazil oğlu** | 01 (Quba rayonu) 22 (Xızı rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 76. | **Məmmədov Anar İlyaz oğlu** | 13, 14 (Tərtər rayonu) 27 (Goranboy rayonu)<br>28 (Bərdə rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 77. | **Məmmədov Ceyhun Valeh oğlu** | 06, 20 (Bakı şəhəri) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Elman Camal oğlu** | 01, 08 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 79. | **Məmmədov Hikmət Baba oğlu** | 04, 18 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 80. | **Məmmədov İlham Kazım oğlu** | 06, 20 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 81. | **Məmmədov Qaya Məmməd oğlu** | 03, 17 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 82. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 06, 20 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 83. | **Məmmədov Soltan Teymur oğlu** | 12, 19 (Bakı şəhəri) | Xətai Salmanov +99450 255 1446<br>12sayli_sd@meclis.gov.az |
| 84. | **Məmmədova Nigar Fikrət qızı** | 01, 10 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99451 277 0014<br>48sayli_sd@meclis.gov.az |
| 85. | **Məsimli Əli Əhməd oğlu** | 28 (Qax rayonu) 29 (Şəki rayonu) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 86. | **Mikayılova Sevil Əlirazı qızı** | 08, 22 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 87. | **Mirkişili Tahir Famil oğlu** | 08, 22 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 88. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 13, 20 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 89. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 12, 24 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 90. | **Mollazadə Asim Nazim oğlu** | 03, 17 (Bakı şəhəri) | Samir Quliyev +99455 223 7272<br>22sayli_sd@meclis.gov.az |
| 91. | **Möhbalıyev Səttar Suliddin oğlu** | 04, 17 (Naxçıvan MR, Babək rayonu) | Rizvan Hüseynquliyev +99470 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 92. | **Muradov Rövşən Şahbaz oğlu** | 02, 16 (Bakı şəhəri) | Rauf Nəcəfli +994 55 508 6055<br>124sayli_sd@meclis.gov.az |
| 93. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 05, 30 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 94. | **Musayev Elşad Nəbi oğlu** | 06, 13 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 774 9919<br>10sayli_sd@meclis.gov.az |
| 95. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 05, 19 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 96. | **Mustafa Fazil Qəzənfər oğlu** | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>01, 08, 22 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 97. | **Nağıyev Arzu Nəsib oğlu** | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>09 (Tovuz rayonu) 23 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 98. | **Namazov Ramid Zakir oğlu** | 08, 29 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 99. | **Nəbiyev Rizvan Novruz oğlu** | 10, 25 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 100. | **Nəsirov Elman Xudam oğlu** | 10, 24 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 101. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10 (Naxçıvan MR, Şərur rayonu)<br>24 (Naxçıvan MR, Kəngərli rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 102. | **Nurullayev Razi Qulaməli oğlu** | 05, 19 (İmişli rayonu) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 103. | **Nurullayeva Könül Oruc qızı** | 11, 25 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 104. | **Oruc Zahid Məhərrəm oğlu** | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04, 18 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 105. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 13, 20 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 106. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 06, 17 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 107. | **Rafailov Anatoliy Xaimoviç** | 13, 27 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 /<br>+99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 13 (Naxçıvan MR, Ordubad rayonu)<br>27 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 11, 25 (Neftçala rayonu) | Fərman Hüseynov +99450 339 7415<br>70sayli_sd@meclis.gov.az |
| 110. | **Rzayev Tahir Musa oğlu** | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 11, 24, 25 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | **Salmanova Səbinə Qədir qızı** | 08, 22 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 112. | **Seyidov Səməd İsmayıl oğlu** | 29 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>10, 24 (Qazax rayonu) | Qədir Mehtixanlı +99470 502 3932 /<br>+99455 678 4859<br>109sayli_sd@meclis.gov.az |
| 113. | **Seyidzadə Şahin Kamil oğlu** | 04 (Qobustan rayonu)<br>18 (Şamaxı və İsmayıllı rayonları) | Elman Mikayılov +99450 600 25 50<br>87sayli_sd@meclis.gov.az |
| 114. | **Səfərov Nizami Abdulla oğlu** | 11, 22 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 115. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 11, 25 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 116. | **Süleymanlı Mahir Tahir oğlu** | 09, 20 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 117. | **Şükürov Zaur Ramiz oğlu** | 08 (Abşeron rayonu) 22 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 118. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 10, 24 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 119. | **Vəliyev Samir Əhməd oğlu** | 04, 18 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 120. | **Vəliyeva Mehriban Hidayət qızı** | 06, 22 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 121. | **Vəliyeva Pərvanə Bulut qızı** | 10, 24 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 122. | **Yıldırım Fatma Vidadi qızı** | 11, 20 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 123. | **Zabelin Mixail Yuryeviç** | 13, 27 (Bakı şəhəri) | Səfi Qasımov +99455 941 9898<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM




# Şükürbəyli kəndinin sakinlərinin sayı 1000 nəfəri ötdü










**İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və məskunlaşma prosesi Azərbaycanın son illərdə həyata keçirdiyi ən mühüm dövlət proqramlarından biridir. Bu prosesin ünvanlarından biri də Cəbrayıl rayonunun Şükürbəyli kəndidir. Uzun illər işğal altında qalan, tamamilə dağıdılan kənd bu gün müasir yaşayış məntəqəsinə çevrilərək keçmiş məcburi köçkünlərin həyatlarında yeni mərhələnin başlanğıcı olur.**



Dünən Cəbrayıl rayonunun Şükürbəyli kəndi növbəti sakinlərinə qovuşub. Bu mərhələdə kəndə 39 ailə olmaqla daha 165 nəfər qayıdıb. Bununla da Şükürbəyli kəndinin sakinlərinin sayı 1080 nəfərə (253 ailə) çatıb. Bu kəndin timsalında dövlətimizin işğaldan azad edilən ərazilərdə həyata keçirdiyi quruculuq siyasətinin miqyası aydın görünür. Qürurla deyə bilərik ki, "Böyük qayıdış" proqramı çərçivəsində artıq 35 mindən çox keçmiş məcburi köçkün əzəli torpaqlarında yaşayır və bu proses mərhələli şəkildə davam edir.

Düşmən əsarətində olduğu müddətdə Şükürbəyli kəndində bir dənə də salamat bina qalmamışdı. Vaxtilə yaşayışın, kənd təsərrüfatının və sosial həyatın mərkəzlərindən biri olan kənd xarabalığa çevrilmişdi. Bu gün isə Şükürbəyli tamamilə yenidən qurulub. Müasir memarlıq prinsipləri əsasında salınan yaşayış məntəqəsi sakinlərin rahat və təhlükəsiz həyat sürmələri üçün bütün zəruri imkanlarla təmin edilir. Cəbrayıl rayonunun mərkəzindən 18 kilometr məsafədə yerləşən Şükürbəyli kəndi strateji və sosial baxımdan mühüm yaşayış məntəqələrindən hesab olunur. Burada həyata keçirilən tikinti və abadlıq işləri kəndin müasir standartlara uyğun şəkildə formalaşdırılmasına imkan yaradıb. İnşa edilən fərdi yaşayış evləri, sosial obyektlər, kommunikasiya xətləri və yol infrastrukturu onu göstərir ki, Azərbaycan azad olunmuş ərazilərdə, sadəcə, əvvəlki vəziyyəti bərpa etmir, eyni zamanda yeni inkişaf modeli yaradır.

Şükürbəyli kəndində təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirilməsi dövlətin insan kapitalına verdiyi önəmin göstəricisidir. Burada inşa edilən 360 şagird yerlik məktəb binası kəndin gələcəyində mühüm rol oynayacaq. Müasir standartlara uyğun tikilmiş məktəbdə şagirdlərin keyfiyyətli təhsil almaları üçün bütün zəruri şərait yaradılıb. Tədris otaqları, laboratoriyalar, texnoloji avadanlıqlar və digər dərs ləvazimatları gələcək nəslin müasir biliklərə yiyələnməsinə xidmət edir.

Kənddə sosial həyatın tam şəkildə bərpası üçün digər mühüm layihələr də həyata keçirilib. İki uşaq bağçası, həkim məntəqəsi, musiqi məktəbi, icma mərkəzi və inzibati bina tikilib. Bu obyektlər sakinlərin gündəlik ehtiyaclarının qarşılanması və sosial rifahın təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Uşaq bağçalarının fəaliyyət göstərməsi gənc ailələrin sosial təminatına xidmət edir, həkim məntəqəsi ilkin tibbi xidmətin əlçatanlığını təmin edir, musiqi məktəbi isə uşaqların və yeniyetmələrin mədəni inkişafına imkan yaradır. İcma mərkəzləri yeni məskunlaşan sakinlərin sosial inteqrasiyası və ictimai fəallığının artırılmasında mühüm rol oynayır. Burada müxtəlif tədbirlərin, görüşlərin və maarifləndirici proqramların təşkili nəzərdə tutulur. İnzibati binanın tikilməsi isə kəndin idarəçilik sisteminin effektiv təşkilinə imkan verir.

Şükürbəylidə kommunal xidmətlərin qurulması da diqqət mərkəzində saxlanılıb. Elektrik yarımstansiyasının istifadəyə verilməsi enerji təminatını tam şəkildə həll edib. Qaz, içməli su, rabitə, internet və "İP TV" şəbəkələrinin qurulması sakinlərin müasir həyat standartlarına uyğun yaşamalarını təmin edir. Kənddaxili yolların asfaltlanması nəqliyyata əlçatanlığı artırır və kəndin digər yaşayış məntəqələri ilə əlaqəsini gücləndirir. Bu infrastruktur layihələri uzunmüddətli və dayanıqlı yaşayışın təmin olunmasına hesablanıb.

Kənddə ilkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Bu evlərin böyük hissəsi sakinlərə təqdim olunub, bir qismi isə xidməti məqsədlər üçün ayrılıb. Evlərin müasir standartlara uyğun şəkildə tikilməsi insanların uzun illərdən sonra doğma torpaqlarında rahat yaşayışına imkan yaradır. Hər bir evdə zəruri kommunikasiya xətləri çəkilib, həyətlər abadlaşdırılıb və yaşayış üçün bütün şərait təmin olunub. Gələcək mərhələlərdə Şükürbəyliyə daha çox ailənin köçürülməsi nəzərdə tutulur. Buraya yalnız kəndin əvvəlki sakinləri deyil, həmçinin Şıxalıağalı, Dəjəl və Mahmudlu yaşayış məntəqələrinin sakinləri də daxil ediləcək. Ümumilikdə 615 ailənin, yəni 2522 nəfərin bu əraziyə köçürülməsi planlaşdırılır. Bu isə Şükürbəyli kəndinin gələcəkdə bölgənin ən iri və inkişaf etmiş yaşayış məntəqələrindən birinə çevriləcəyini göstərir.

Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni infrastruktur regionun iqtisadi potensialının reallaşdırılması üçün mühüm baza formalaşdırır. Cəbrayıl rayonunun da gələcəkdə həm kənd təsərrüfatı, həm logistika, həm də enerji sahəsində ölkə iqtisadiyyatına böyük töhfə verəcəyi gözlənilir. Xüsusilə "yaşıl enerji" layihələri Cəbrayılın gələcək inkişaf perspektivlərini daha da artırır. Hazırda rayonda üç böyük günəş-elektrik stansiyasının tikintisi həyata keçirilir. Həmin stansiyaların ümumi gücü 340 meqavat olacaq. Bu göstərici regionun enerji təminatı baxımından mühüm əhəmiyyət daşıyır. Müqayisə üçün qeyd edilir ki, 340 meqavat enerji ilə bütün Qarabağı təmin etmək mümkündür. Enerji layihələrinin reallaşdırılması yeni iş yerlərinin açılmasına, investisiya imkanlarının genişlənməsinə və regionda iqtisadi fəallığın artmasına səbəb olacaq. Bu proses həm yerli əhalinin məşğulluğunun təmin olunmasına, həm də bölgəyə yeni biznes və sahibkarlıq təşəbbüslərinin cəlb edilməsinə şərait yaradacaq. Eyni zamanda müasir enerji infrastrukturu sənaye və kənd təsərrüfatı layihələrinin inkişafına da ciddi təkan verəcək.

Şükürbəyli kəndində həyata keçirilən layihələr bir daha göstərir ki, Azərbaycan azad olunmuş ərazilərdə planlı və sistemli şəkildə inkişaf strategiyası həyata keçirir. Burada əsas məqsəd yalnız insanların doğma yurdlarına geri qaytarılmaları deyil, eyni zamanda onların təhlükəsiz, rahat və uzunmüddətli yaşayışının təmin edilməsidir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr göstərir ki, "Böyük qayıdış" proqramı yalnız bugünkü nəslin deyil, gələcək nəsillərin də rifahına hesablanmış uzunmüddətli dövlət strategiyasıdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Ukraynalı uşaqlar türk dilinə böyük maraq göstərirlər

Kiyev 1 nömrəli Şərq Dilləri Gimnaziyasında təhsil alan uşaqlarda türk dilinə böyük maraq var. Hazırda gimnaziyanın 900 şagirdindən təxminən 100-ü türk dilini öyrənir.



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) sinif otaqlarını təmir və təchiz edir, eləcə də mədəni tədbirlərin inkişafı və keçirilməsi üçün lazım olan zalı modernləşdirir. Şagirdlərin Türkiyəyə həsr olunmuş rəsmləri məktəbdə nümayiş olunur.

Gimnaziyanın direktoru Oksana Proskura "Anadolu" Agentliyinə verdiyi müsahibədə 11 ildir ki, 7 şərq dilini tədris edən məktəbə rəhbərlik etdiyini bildirib. "Yeni şagirdləri qəbul edərkən demək olar ki, hər kəs üçün türk dili ilk seçimdir. Bəziləri türk mədəniyyətinə heyran qalır, digərləri tətillərini ailələri ilə birlikdə Türkiyədə keçirirlər. Hər kəsin Türkiyə haqqında xoş xatirələri var", - deyən Proskura sinif otaqlarının Türkiyədən əhəmiyyətli dəstək aldığını da qeyd edib.

Məktəb direktorunun vurğuladığı kimi, müharibə dövründə Türkiyənin köməyi məktəb üçün çox dəyərlidir, çünki o, təhsil prosesində əsas rol oynayır. Proskuranın sözlərinə görə, Türkiyə ilə təhsil sahəsində əməkdaşlıq çox fəal şəkildə inkişaf edir. O bildirib ki, Türkiyədə çalışan Ukrayna diplomatları arasında məktəbin məzunları da var.

Proskura həmçinin deyib ki, məktəb məzunlarını Türkiyədəki universitetlərə göndərir. Türkiyədəki bəzi ukraynalı tələbələr isə münaqişə səbəbindən təhsillərini onlayn davam etdirirlər. Direktor təhsil sahəsindəki əməkdaşlıqdan danışarkən qeyd edib ki, məktəb iki ölkə arasında "körpü" rolunu oynayır.

# Boliviya Kolumbiya səfirini "persona non grata" elan edib

Boliviya hakimiyyəti Kolumbiyanın La Pasdakı səfiri Elizabet Qarsiya Karrillonu "persona non grata" elan edib. Boliviya Xarici İşlər Nazirliyinin verdiyi məlumata görə, bu addım Kolumbiya Prezidenti Qustavo Petronun ölkənin daxili işlərinə müdaxilə hesab etdikləri açıqlamaları ilə əlaqədardır.



Boliviya XİN-i Petronun açıqlamalarını qəbuledilməz adlandırıb və buna görə də səfir Karrillonu "persona non grata" elan etmək qərarına gəlib. Bəyanatda deyilir: "Bu qərar suverenlik, daxili işlərə müdaxilə etməmək və dövlətlər arasında qarşılıqlı hörmət prinsiplərinə riayət etmək zərurətindən irəli gəlir. Bu prinsiplər beynəlxalq birgəyaşayışın və suveren dövlətlər arasında diplomatik münasibətlərin təməl daşıdır. Bu vəziyyət Boliviya və Kolumbiya xalqları arasında dostluq, hörmət və tərəfdaşlığa əsaslanan münasibətləri əks etdirmir və iki ölkə arasındakı dərin tarixi əlaqələrə ziddir".

Boliviya Xarici İşlər Nazirliyi qərarın Kolumbiya ilə diplomatik münasibətlərin kəsilməsi demək olmadığını vurğulayıb. İki ölkə xalqları arasında dostluq və əməkdaşlıq münasibətləri qorunub saxlanılacaq. Nazirlik əlavə edib ki, Boliviyanın daxili siyasi və sosial problemləri konstitusiya və demokratik mexanizmlər çərçivəsində, xarici müdaxilə olmadan həll edilməlidir.

Xatırladaq ki, Kolumbiya Prezidenti Qustavo Petro mayın 17-də verdiyi açıqlamasında kəndli qrupları, Boliviya fəhlə mərkəzi (COB) və keçmiş prezident Evo Moralesin tərəfdarları tərəfindən təşkil edilən etiraz aksiyalarına və yol maneələrinə toxunub. Petro Boliviyadakı hadisələri "geosiyasi təkəbbürə qarşı xalq üsyanı" adlandırıb.

Boliviyanın son 40 ilin ən pis iqtisadi böhranı fonunda iki həftədir davam edən etiraz aksiyalarında təhlükəsizlik qüvvələri ilə Prezident Pasın istefasını tələb edən nümayişçilər arasında toqquşmalar baş verib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu (indiki Bakı Slavyan Universiteti) tərəfindən Mehriban Soltan qızı Məmmədovanın adına verilmiş 33293 qeydiyyatlı, AB-I 039736 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Aviasiya Akademiyasının rəhbərliyi və kollektivi akademiyanın Elmi informasiya və patent şöbəsinin müdiri

**FUAD MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi "Körpü-Bina-Tikinti" MMC-nin sədri Xəlil Göyüşova anası

**PƏRİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi konfederasiyanın sədr müavini Qəzənfər Abdullayevə əzizi

**NİHALIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin "Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu" PHŞ-nin rəhbərliyi və kollektivi "Körpü-Bina-Tikinti" MMC-nin sədri Xəlil Göyüşova anası

**PƏRİ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


ÜMUMDÜNYA ŞƏHƏRSALMA FORUMU



WUF13



WORLD URBAN FORUM



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3816
Sifariş 654

Qiyməti 60 qəpik